RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 264 (8857) BAZAR, 5 dekabr 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



◆ Zəfərin izi ilə



# Azərbaycan dünyanı heyrətləndirməkdə davam edir

## Finlandiya Respublikasının Prezidenti zati-aliləri cənab Sauli Niinistöyə

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Finlandiya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 3 dekabr 2021-ci il***

## Tailandın Kralı Əlahəzrət Maha Vaciralonqkorn Bodindradebayavaranqkuna

Əlahəzrət!

Tailand Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı ikitərəfli münasibətlər bundan sonra da dostluq məcrasında inkişaf edəcək, beynəlxalq təsisatlar, xüsusən də Qoşulmama Hərəkatı çərçivəsində əlaqələrimiz genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Tailand Krallığının dost xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2021-ci il*

◆ 5 Dekabr Beynəlxalq Könüllülər Günüdür




## Səmimi xeyirxahlıq

### İlham Əliyevin yaratdığı “ASAN” modeli ilə əsası qoyulan könüllülük hərəkatı yüksəliş mərhələsindədir

**Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi qazanca əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqamətidir. Könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək dünyada kütləvi sosial fəaliyyətə çevrilib.**

Sevindirici haldır ki, son illər könüllülüyün sürətlə inkişaf etdiyi Azərbaycan bu fəaliyyətin təbliğində və inkişafında özünəməxsus rol oynayır. Azərbaycanın müstəqilliyin bərpasından sonra qazandığı uğurlarda könüllü gənclərin də payı var.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin reallaşdırdığı siyasətin əsas məqsədlərindən biri də neft kapitalının insan kapitalına çevrilməsi idi. Bu zaman qarşıya qoyulan məqsədləri gerçəkləşdirmək üçün innovativ və geniş kütlənin maraqlarına cavab verən yeni addımlara ehtiyac yaranmışdı və təbii ki, bu sahədə könüllülük fəaliyyəti mühüm önəm daşımağa başladı. Məhz bu dövrdə - 2009-cu ildə Milli Məclisin “Könüllü fəaliyyət haqqında” qanun qəbul etməsi Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.

*Ardı 3-cü səh.*

## «Zəngəzur dəhlizi reallığa çevrilir»

### İlham Əliyev İƏT-ə üzv ölkələri bu dəhlizdən istifadə etməyə çağırmışdır

**Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısı çərçivəsində keçirilən tədbir və görüşlərin əksəriyyətində Azərbaycanın nüfuzu və böyük qələbəmizə bəslənilən rəğbət aydın hiss olundu. Bir daha göründü ki, Azərbaycan dərin iqtisadi islahatlara və davamlı sülhə sədaqətini qoruyan dövlətlər sırasındadır.**

Prezident 30 illik işğal dövründə həmin ərazilərdə bütün şəhər və kəndlərin, o cümlədən mədəni və dini irs abidələrimizin Ermənistan tərəfindən yerlə-yeksan edildiyini bir daha Zirvə toplantısında dilə gətirmişdir: “Bütün müsəlmanlara qarşı təhqir və nifrət zəminində Ermənistan bizim məscidləri dağıtmış və təhqir etmiş, o cümlədən onlardan donuz və inək tövləsi kimi istifadə etmişdir. İşğal dövründə həmin ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılmış, digər iki məscidə isə ciddi zərər dəymişdir. Qəbiristanlıqlar da vandalizmə məruz qalmışdır”.

*Bax: səh. 4*

## Ermənilərin viran qoyduğu Qarabağ və Şərqi Zəngəzur tezliklə cənnətə çevriləcək

**Torpaqlarımızın işğaldan azad edilməsindən çox zaman keçməyib. Yurd yerlərimiz düşmən tapdağından qurtulduğu bu qısa dövrdə dünya iki məsələyə heyrət edir.**

Bunlardan biri erməni barbarlığı nəticəsində torpaqlarımızın viran edilməsi, onların uzun illər boyu daşı daş üstünə qoymamasıdır. Dünyanın heyrət etdiyi ikinci məsələ isə Azərbaycanın bu qısa dövrdə işğaldan azad olmuş ərazilərdə gördüyü işlərdir.

Füzuli Hava Limanının qısa bir müddətdə istifadəyə verilməsi indiyəcən müxtəlif ölkələrdən gələn siyasətçiləri, diplomatları və jurnalistləri heyrətə gətirir. Adi fakt deyil - cəmi 8 ayda dörd bir tərəfi dağıdılmış və minalanmış bu ərazidə möhtəşəm hava limanı inşa edilmişdir. Ən maraqlısı isə budur ki, işğaldan azad edilmiş torpaqlarımızda daha iki hava limanı tikiləcək, özü də maliyyə üçün heç bir beynəlxalq təşkilatın qapısını döymədən.

Məlumdur ki, işğaldan azad edilmiş ərazilərin çox hissəsi dağlıqdır. Üstəlik, az qala hər qarışında mina basdırılıb. Erməni vandallarının nə üçün bu qədər mina basdırması əcnəbiləri təəccübləndirsə də, biz təəccüblənmirik.

*Ardı 4-cü səh.*

## Stokholmda Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşünün baş tutmamasının səbəbi açıqlanıb

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ATƏT-in Stokholmda keçirilən iclasında Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüşün baş tutmaması ilə bağlı KİV-in sualını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva suala şərhində deyib: “Bildiyiniz kimi, dekabrın 2-3-də Stokholm şəhərində ATƏT-in Nazirlər Şurasının 28-ci iclası keçirildi və Azərbaycan xarici işlər naziri bu iclasda iştirak etdi.

İclasdan öncə Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan nazirlərinin növbəti görüşünün Stokholmda keçirilməsi təklifi ilə çıxış etmişdi. Bəllidir ki, Azərbaycan hər zaman dialoqun tərəfdarıdır və bundan öncə keçirilmiş Nyu York, Minsk və Paris görüşlərində Azərbaycan xarici işlər naziri postmünaqişə dövründə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində məsələlər ilə bağlı ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb.

Lakin dekabrın 3-də nəzərdə tutulan görüşdən bir neçə saat öncə Ermənistan tərəfinin təxribatı baş verdi. Belə ki, Ermənistan parlamentarilərinin Azərbaycan Respublikası ərazilərinə qanunsuz səfər etməsi ilə bağlı məlumat yayıldı. Beləliklə də, Azərbaycan tərəfi Ermənistanın bu təxribatına cavab olaraq, Stokholmda iki ölkə nazirinin görüşünün keçirilməsini məqsədəuyğun hesab etmədi.

Göründüyü kimi, iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində Azərbaycan tərəfindən addımların atılmasına baxmayaraq, Ermənistan hərbi-siyasi təxribatlarını davam etdirir. Ermənistanın bu mövqeyi bölgədə sülh quruculuğu səylərinə xələl gətirir”.

## Komando hərbi hissəsində taktiki təlim keçirilib



*Bax: səh. 2*

## Xəstəliklərin adları ayrı-seçkilik salır

### ÜST yeni ştamların adlarında coğrafi əlaqələrdən imtina etməyə çağırır

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) çağırışına baxmayaraq, B.1.1.529 koronavirusu tez-tez “Cənubi Afrika” variantı adlandırılır. Bu cür adqoymaların təhlükəsi nədir?**

*Ardı 6-cı səh.*



# "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiqi və Azərbaycan Respublikası Prezidentinin "N.Ə.Əmirovun "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri təyin edilməsi haqqında" 2017-ci il 6 noyabr tarixli 3348 nömrəli, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" 2019-cu il 10 iyun tarixli 1226 nömrəli, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" 2020-ci il 16 aprel tarixli 1989 nömrəli sərəncamlarının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 5.2-ci bəndinə uyğun olaraq **qərara alıram:**

1. "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Natiq Əmirov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

**Müşahidə Şurasının üzvləri**

İnam Kərimov - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Xalid Əhədov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Elman Rüstəmov - Azərbaycan Respublikası Mərkəzi Bankının sədri.

2. "N.Ə.Əmirovun "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 noyabr tarixli 3348 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2057) ləğv edilsin.

3. "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 10 iyun tarixli 1226 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1064) ləğv edilsin.

4. "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 aprel tarixli 1989 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 454) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2021-ci il*

# *Tahir BUDAQOV:* "Azərbaycan və Ukraynanın iqtisadi əlaqələrində istifadə olunmamış böyük potensial var"

Ukrayna Ticarət və Sənaye Palatasının prezidenti Gennadi Çijikov bu ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Ukrayna arasında iqtisadi-ticari əlaqələrin perspektivləri müzakirə edilib.

Ukraynanın Azərbaycanla iqtisadi əlaqələrin inkişafında maraqlı olduğunu deyən Gennadi Çijikov bildirib ki, ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə dinamik əməkdaşlıq davam edir. Hər iki ölkə enerji, sənaye, kənd təsərrüfatı sahələrində birgə layihələr reallaşdırır. Azərbaycanla Ukrayna arasında ticarət dövriyyəsi artmaqdadır, lakin bu rəqəm mövcud potensialı əks etdirmir. Ona görə də hər iki ölkənin şirkətlərinin qarşılıqlı investisiya yatırımının artırılması istiqamətində işlər davam etdirilməlidir. Ukraynanın ərzaq və qeyri-ərzaq məhsullarının istehsalına görə Avropa ölkələri arasında öncül yerlərdən birini tutduğunu deyən Gennadi Çijikov vurğulayıb ki, Ukrayna Azərbaycan vasitəsilə üçüncü ölkələrə, o cümlədən İran bazarına çıxa bilər. Bu işdə birgə layihələr həyata keçirmək olar.

İşğal altındakı torpaqlarımızın azad olunması münasibətilə təbriklərini çatdıran Gennadi Çijikov deyib ki, Ukrayna şirkətləri bu ərazilərin bərpa və yenidənqurma işlərində iştirak edə bilərlər. Onların bu istiqamətdə böyük təcrübəsi var.

Azərbaycan və Ukraynanın ümumi tarixə malik olduğunu xatırladan YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov vurğulayıb ki, iki ölkə arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur.

"Azərbaycan və Ukraynanın iqtisadi əlaqələrində istifadə olunmamış böyük potensial var. Ticarət dövriyyəsinin artmasına baxmayaraq, mütləq rəqəmlər bizi qane edə bilməz", - deyə Tahir Budaqov əlavə edib.

Azərbaycan və Ukraynanın bir-birinin ərazi bütövlüyünü dəstəklədiyini deyən YAP sədrinin müavini 44 günlük Vətən müharibəsində ölkəmizin haqlı mübarizəsini müdafiə etdiyi üçün Ukrayna dövlətinə təşəkkürünü bildirib.

"Azərbaycanın işğaldan azad edilən əraziləri, demək olar, tamamilə dağıdılıb. Hazırda orada bərpa və yenidənqurma işləri aparılır. Artıq magistral yollar çəkilib, Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib, dini və tarixi abidələr bərpa edilib. Şuşa şəhərində beynəlxalq festivallar keçirilib. Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycana dost ölkələr işğaldan azad olunan ərazilərimizin bərpa işlərində iştirak edə bilərlər. Biz Ukrayna şirkətlərini işğaldan azad olunmuş ərazilərimizin bərpa və yenidənqurma işlərində iştiraka dəvət edirik", - deyə Tahir Budaqov vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da geniş müzakirələr aparılıb.

Sonra YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Kiyevin "UNIT.City" İnnovasiya Parkında yaradılan şəraitlə tanış olub.

Qonaqlara məlumat verilib ki, "UNIT.City" Ukraynanın ilk innovasiya parkıdır. Park Mərkəzi və Şərqi Avropada İT və texnologiya şirkətləri üçün infrastruktur və innovasiya ekosistemini birləşdirən ən böyük platformalardan biridir. "UNIT.City" 25 hektar ərazidə yerləşir. İnnovasiyalar parkı müxtəlif təyinatlı daşınmaz əmlakın bütöv blokunu təşkil edir. Buraya ofislər, yaşayış sahələri, innovativ təhsil müəssisələri, R&D mərkəzləri, VR və AR laboratoriyaları, 3D çap və aşqarların istehsalı üçün müəssisələr daxildir.

Qeyd edək ki, YAP nümayəndə heyətinin üzvləri - partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, YAP İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Milli Məclisin deputatı Ramil Həsən, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının Beynəlxalq əlaqələr şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli, Azərbaycanın Ukraynadakı səfirliyinin müşavirləri Kamal Xəlilov və Sabir Rzayev, Ukrayna Azərbaycanlıları Radasının həmsədri, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri Hikmət Cavadov da tədbirlərdə iştirak ediblər.

# Komando hərbi hissəsində taktiki təlim keçirilib





Cari ilin döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissəsində döyüş atışlı taktiki təlim keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi heyət "Həyəcan" siqnalı ilə daimi dislokasiya məntəqəsini tərk edərək cəmləşmə rayonuna hərəkət edib.

Təlimin ssenarisinə uyğun olaraq, verilən müdaxiləyə əsasən hərəkətdən birbaşa döyüş düzülüşünə keçən heyət atəş mövqelərini tutaraq atıcı silahlardan və qumbaraatanlardan atışlar yerinə yetirib.

Təlimin əsas məqsədi şəxsi heyətin atıcı silahlardan istifadə bacarıqlarının və Əməliyyat (Komando) bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsi, eləcə də komandir heyətinin bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsidir. Təlimdə qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

# Ermənistan işğaldan azad olunan digər ərazilərimizin mina xəritələrini də Azərbaycan tərəfinə təqdim edib

Azərbaycan Respublikası humanizm prinsiplərini əsas tutaraq dekabrın 4-də 10 nəfər erməni əsilli hərbi qulluqçunu Ermənistan tərəfinə təhvil verib.

Dövlət Təhlükəsizliyi Xidmətinin AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, təhvil verilmiş şəxslər noyabrın 16-da Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədinin Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılıb.

Qeyd edək ki, humanizm prinsiplərinə sadiq olan Azərbaycan Respublikası bir müddət öncə - noyabrın 26-da erməni əsilli bir mülki şəxsi və bir hərbi qulluqçunu Ermənistan tərəfinə təhvil verib. Eyni zamanda, aparılmış danışıqlar nəticəsində Ermənistan tərəfi Azərbaycan Respublikasının işğaldan azad olunan digər ərazilərinin mina xəritələrini də Azərbaycan tərəfinə təqdim edib.

"Mina xəritələrinin əldə olunmasında göstərdiyi vasitəçilik missiyasına görə Rusiya Federasiyasının Müdafiə Nazirliyinə təşəkkürümüzü bildiririk", - deyə məlumatda qeyd olunub.

# Abşeron Milli Parkında "Ümumrespublika Yaşıllaşdırma Marafonu"nun yekun ağacəkmə aksiyası keçirilib










**Dekabrın 4-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Abşeron Milli Parkında 2021-ci il "Ümumrespublika Yaşıllaşdırma Marafonu"nun ("Yaşıl Marafon") yekun ağacəkmə aksiyası və BMT İnkişaf Proqramının "EU4Climate" layihəsi çərçivəsində veloyürüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, müdafiə sənayesi naziri, Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev, həmçinin Birləşmiş Millətlər Təşkilatının, Avropa İttifaqının və Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndələri, Böyük Britaniya, Belçika, Tacikistan, Bolqarıstan, Yunanıstan və İsrailin Azərbaycandakı səfirləri və diplomatik korpusun digər nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində 2021-ci il "Yaşıl Marafon"nunun 1 milyonuncu ağacı əkilib və bununla da ağacəkmə kampaniyası başa çatdırılıb.

Qeyd edək ki, "Yaşıl Marafon" kampaniyası çərçivəsində cari ilin yaz və payız mövsümlərində ölkə üzrə kütləvi ağacəkmə aksiyaları keçirilib. IDEA İctimai Birliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə həyata keçirdikləri aksiyalar zamanı iydə, şam, fıstıq, sərv, akasiya, ağcaqayın, göyrüş, qoz, palıd, şabalıd, zeytun və sair yerli cinslərdən olmaqla müxtəlif ərazilərin torpaq-iqlim şəraitinə müvafiq qaydada ağaclar əkilib.

Ağacəkmə kampaniyasının əsas məqsədi ölkəmizin yaşıllıq sahələrini artırmaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "EU4Climate" regional layihəsinin məqsədi Paris Sazişinə uyğun olaraq tərəfdaş ölkələrdə iqlim dəyişmələri təsirlərinə dayanıqlı və aşağı emissiyalı hədəflərin qanunvericiliyə inteqrasiyasına və həyata keçirilməsinə dəstək göstərməkdir. Abşeron Milli Parkında keçirilən veloyürüş, digər tədbirlərlə yanaşı, sözügedən layihə çərçivəsində ölkəmizdə təmiz nəqliyyatın təbliği və Avropa Nəqliyyat Həftəsinin (European Mobility Week) qeyd olunması məqsədilə təşkil edilib.

Qeyd edək ki, Abşeron Milli Parkında təşkil olunan ekoloji tədbir cari ilin noyabr ayında Qlazqoda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəfləri Konfransının 26-cı sessiyasında atmosferdə istixana qazı tullantılarının azaldılmasına dair qarşıya qoyulan hədəflər üzrə qlobal səylərə dəstək xarakteri daşıyır. Bu baxımdan IDEA İctimai Birliyi bütün dünyada planetimizin mühafizəsi ilə bağlı kəskin mübarizənin aparıldığı bir vaxtda hər kəsi öz üzərinə düşən vəzifəni yerinə yetirməyə, ətraf mühiti qorumağa, yaşıllıqların artırılmasına töhfə verməyə çağırır.

# *Ali Radanın spikeri:* "Azərbaycan və Ukraynanı ortaq keçmişdən daha çox uğurlu gələcək birləşdirir"

## YAP ilə "Xalqın Xidmətçisi" partiyası arasında əməkdaşlıq memorandumu imzalanıb

Kiyevdə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Ukrayna Ali Radasının spikeri Ruslan Stefançukun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Ali Radada keçirilən görüşdə Ukrayna tərəfindən spikerin birinci müavini Aleksandr Kornienko, hakim "Xalqın Xidmətçisi" partiyasının sədri, deputat Yelena Şulyak, Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Valeriy Kolyux, həmsədrin müavini Lyudmila Marçenko iştirak ediblər.

Qonaqları salamlayan Ruslan Stefançuk bildirib ki, Azərbaycan və Ukraynanı ortaq keçmişdən daha çox uğurlu və keyfiyyətli gələcək birləşdirir. Azərbaycanın ərazi bütövlüyü problemini həll etdiyini deyən Ali Radanın sədri Ukraynanın da ərazi bütövlüyü məsələsinin həllinə nail olmaq istədiyini vurğulayıb. Qeyd edib ki, Ukrayna bu sahədə Azərbaycanla fikir mübadiləsi aparmaq, Azərbaycanı Qələbəyə aparan təcrübədən faydalanmaq istəyir.

"Azərbaycan və Ukrayna bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Bu da bizim əsl dost olmağımızdan xəbər verir. Əlaqələrimizin təkcə parlamentlərarası deyil, həm də partiyalararası inkişafı önəmlidir. İqtisadi, siyasi və rəqəmsal sahələrdə birgə layihələr həyata keçirmək olar", - deyə Ruslan Stefançuk əlavə edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib ki, iki ölkə arasında isti dostluq münasibətləri tarixən mövcud olub.

Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevin qarşı tərəfə salamlarını çatdıran Tahir Budaqov bildirib: "Prezidentimizin Ukraynaya çox isti münasibəti var. Ukraynada güclü Azərbaycan diasporu mövcuddur. Azərbaycan-Ukrayna əlaqələrinin inkişafında diasporun da öz xidməti var. İki ölkə arasında əlaqələrin inkişafı potensialı böyükdür. Əminəm ki, bu istiqamətdə birlikdə hərəkət edəcəyik. Azərbaycan və Ukrayna prezidentləri İlham Əliyev və Vladimir Zelenski demokratik prinsiplərə, ölkələrimizin, xalqlarımızın milli maraqlarına əsaslanan münasibətləri inkişaf etdirirlər. Partiyalarımız arasında əlaqələr nə qədər sıx olsa, bütün sahələrin inkişafına öz töhfəsini verər".

Sonra çıxış edən Aleksandr Kornienko, Yelena Şulyak, Valeriy Kolyux, YAP-ın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Milli Məclisin deputatı Ramil Həsən iki ölkə arasında əməkdaşlığın inkişafından danışıblar.

Daha sonra YAP və "Xalqın Xidmətçisi" partiyası arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu Yeni Azərbaycan Partiyası sədrinin müavini Tahir Budaqov və "Xalqın Xidmətçisi" partiyasının sədri Yelena Şulyak imzalayıblar.

Qeyd edək ki, görüşdə Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının Beynəlxalq əlaqələr şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli və Azərbaycanın Ukraynadakı səfirliyinin müşaviri Kamal Xəlilov, Ukrayna Azərbaycanlıları Radasının həmsədri, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri Hikmət Cavadov da iştirak ediblər.

# *YAP sədrinin müavini:* "Azərbaycanın və Ukraynanın hakim partiyaları arasında imzalanan memorandum münasibətlərin inkişafına töhfə verəcək"

Azərbaycanın və Ukraynanın hakim partiyaları arasında əməkdaşlıq memorandumunun imzalanması iki ölkə münasibətlərinin inkişafına töhfə verəcək.

Bunu Ukraynada səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov AZƏRTAC-a müsahibəsində söyləyib. Tahir Budaqov bildirib ki, Azərbaycanla Ukrayna çoxillik dostluq münasibətlərinə malikdir, dövlətlərimiz bir-birinin ərazi bütövlüyünü daim dəstəkləyib.

"Azərbaycan-Ukrayna münasibətlərinin yaranmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olub. Hazırda isə Azərbaycan və Ukrayna prezidentləri İlham Əliyevin və Vladimir Zelenskinin münasibətləri hər iki ölkənin milli maraqlarına əsaslanır. Dövlətlər arasında əməkdaşlıq strateji tərəfdaşlıq prinsipləri çərçivəsində inkişaf edir. Sözsüz ki, hakim Yeni Azərbaycan Partiyası ilə Ukraynanın "Xalqın Xidmətçisi" Partiyası arasında əlaqələrin qurulması ümumilikdə dövlətlərimiz, xalqlarımız arasında dostluq münasibətlərinin inkişafına öz töhfəsini verəcək", - deyə YAP sədrinin müavini əlavə edib.

Tahir Budaqov bildirib ki, imzalanan memorandum qarşılıqlı səfərlərin təşkili, eyni zamanda, təcrübə mübadiləsi, partiyaların gəncləri, diasporlar, vətəndaş cəmiyyətləri arasında münasibətlərin inkişafını, informasiya mübadiləsinin gücləndirilməsini nəzərdə tutur.

◆ 5 Dekabr Beynəlxalq Könüllülər Günüdür



# Səmimi xeyirxahlıq

## İlham Əliyevin yaratdığı "ASAN" modeli ilə əsası qoyulan könüllülük hərəkatı yüksəliş mərhələsindədir

*Əvvəli 1-ci səh.*

### "ASAN xidmət"dən başlayan yol

Müstəqilliyin bərpasından sonra Azərbaycanda könüllülük fəaliyyəti yaransa da onun hərəkat kimi formalaşması 2012-ci ilə təsadüf edir. İlham Əliyevin müəllifi olduğu müasir Azərbaycan brendi sayılan "ASAN xidmət"in fəaliyyətə başlaması ilə könüllülük hərəkatının əsası qoyuldu. 2012-ci il dekabrın 29-da 1 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışı zamanı bir qrup "ASAN könüllüsü" ilə görüşən İlham Əliyev "ASAN" könüllülük hərəkatına xeyir-duasını verdi. "ASAN xidmət"ə qədər müxtəlif qeyri-hökumət və beynəlxalq təşkilatlarda yüzlərlə azərbaycanlı gənci könüllü kimi fəaliyyət göstərirdi. Lakin könüllülük hərəkatı olaraq bu fəaliyyət məhz "ASAN xidmət"dən başladı. 2016-cı il dekabrın 28-də 1 saylı Bakı "ASAN Kommunal" mərkəzinin açılışı zamanı dövlət başçısının sözləri bunun bariz sübutudur: "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. "ASAN" yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq könüllülər hərəkatı nədir, onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır".

Azərbaycan könüllülər hərəkatının uğurlarına hər kəs şahidlik edib. Belə ki, ölkəmizdə keçirilən Birinci Avropa Oyunları, Dördüncü İslam Həmrəyliyi Oyunları və "Formula-1" Qran-pri yarışlarında Azərbaycan könüllülərinin əvəzsiz xidmətləri olub.

Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci il ölkəmizdə "Könüllülər ili" elan edilib.

### "Yaşıl ASAN" - "Hər kağızı bir yarpağa dəyişək"

Bu gün müxtəlif sahələrdə könüllülük fəaliyyəti ilə məşğul olan gənclər ordusu formalaşıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN" könüllülük hərəkatı tərəfindən müxtəlif istiqamətləri əhatə edən layihələr gerçəkləşdirilib.

Ümumiyyətlə, "ASAN xidmət" fəaliyyətə başladığı ilk gündən könüllülərə, yaradıcı gənclərə hər zaman dəstək göstərir və onların inkişafı üçün şərait yaradır.

Bu imkanlardan və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ekoloji sahədəki fəaliyyətindən həvəslənən bir qrup "ASAN" könüllüsü 2015-ci ilin 1 may tarixində "Yaşıl ASAN"ın yaradılması ideyasını irəli sürdülər. İlkin olaraq fəaliyyəti kağız israfını azaltmaq və təkrar emalı təşviq etmək yolu ilə ağacların qorunmasına, təbiətin mühafizəsinə və ekoloji balansın saxlanılmasına nail olmaq idi. Dövlət Agentliyi və İDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin birgə həyata keçirdiyi "Hər kağızı bir yarpağa dəyişək" layihəsində "Yaşıl ASAN" təşəbbüsü də aktiv iştirak etmişdir. Bakı şəhərində və regionlarda yerləşən "ASAN xidmət" mərkəzlərinin istifadəyə yararsız kağızların qəbul məntəqələri yaradılmış və Bakı, Bərdə, Sumqayıt, Sabirabad və İmişli regionlarında keçirilən "Yaşıl dağ" aksiyası çərçivəsində 200 tondan çox kağız tullantısı toplanmış və bununla da 5000 ağacın kəsilməsinin qarşısı alınmışdı.





2015-ci ildən başlayaraq "Yaşıl ASAN" təşəbbüsü Beynəlxalq Sahilyanı Təmizlik Gününün qeyd olunması çərçivəsində Xəzər dənizinin sahilyanı ərazilərinin təmizlənməsi aksiyasına başlamış və hər il bu aksiyada yüzlərlə ASAN könüllüsü aktiv iştirak edir.

2016-cı ildən Bakı şəhərində və "ASAN xidmət" mərkəzlərinin olduğu regionlarda ekoloji müvəkkillər institutu yaradılıb, çoxsaylı layihə və tədbirlər həyata keçirilib. Bunun nəticəsi olaraq təşəbbüs bu gün "ASAN Könüllülük" məktəbinin ekoloji proqramına çevrilib. Proqramın üç əsas məqsədi var - ekoloji maarifləndirmə, ətraf mühitin mühafizəsi və sağlam həyat tərzinin təbliğ olunması.

"Yaşıl ASAN" komandası böyüyür və yüzlərlə gənci əhatə edir. Aktiv komanda üzvlərində təşkilatçılıq bacarıqları inkişaf edir, ən əsası da dostluq, birlik və komanda uğuru prinsiplərinə uyğun fəaliyyət göstərir. Bunun nəticəsində ekoloji və müxtəlif sahələrin sintezi ilə 300-dən çox yaşıl təfəkkürün məktəblilərdə və vətəndaşlarda formalaşması üçün ekoloji maarifləndirci tədbirlər, ağacəkmə aksiyaları, veloyürüşlər, yoqa və digər idman fəaliyyətləri həyata keçirilir, ümumilikdə bu layihələrdən on minlərlə insan faydalanır.

### "ASAN Könüllülük" məktəbində əcnəbi gənclərə də dəstək göstərilir

2017- ci ildən başlayaraq ilk dəfə Azərbaycanda ekoloji könüllülük fəaliyyətinə "ASAN Könüllülük" məktəbinin "Yaşıl ASAN" ekoloji proqramı çərçivəsində əcnəbi gənclər də cəlb olunublar. 2017-2019-ci illər ərzində proqramda Böyük Britaniya, Serbiya, Niderland, Pakistan, Çin, Hindistandan, Qazaxıstan, Türkiyə, Əlcəzair, Tailand, Honkonq, Türkiyə, Nigeriya, Maldiv, Liberiya, Əfqanıstan və Gürcüstan kimi ölkələrdən əcnəbi gənclər iştirak ediblər. Ümumilikdə bu illər ərzində 34 əcnəbi gənc "ASAN Könüllüsü" adını qazanıbdır.

Ermənistan Azərbaycana qarşı hərbi təcavüzlə yanaşı, ekoloji təcavüz də etmişdir. Ermənilər Şuşanın nadir sərvətlərindən biri, qədim tarixə malik, əsl təbiət möcüzəsi olan Topxana meşəsini yandırmış, ölkəmizin ərazi bütövlüyünə, torpaqlarına qəsd edərək Azərbaycan ərazisində ekoloji soyqırımı - ekosid törətmişlər. Törədilən ekoloji terroru beynəlxalq səviyyədə tanıtmaq üçün 10 min nəfər könüllüdən ibarət xüsusi qrup yaradılmışdır. Bu qrup "tvitter", "facebook" və digər sosial şəbəkələrdə Azərbaycan, rus və ingilis dillərindən ibarət 1000-dən çox maarifləndirici və tanıdıcı postları paylaşmışdır.

27 sentyabr 2021-ci ildə Vətən Müharibəsi Şəhidlərinin Anım Günü ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə təşkilatçılığı ilə Qaradağ rayonu ərazisində 3000-dən çox eldar şamı, kiparis və digər ağaclar əkilmiş, 8 noyabr - Zəfər Gününə həsr olunmuş "ASAN Könüllülük" məktəbinin "Yaşıl ASAN" proqramının təşkilatçılığı ilə Gəncə, Bərdə, Mingəçevir, Qəbələ və İmişli regional "ASAN xidmət" mərkəzlərində könüllü olmuş "Vətən müharibəsi"nin iştirakçıları ilə birgə ağacəkmə aksiyaları keçirilmişdir.

### Könüllülərin əməyi ilə "YAŞAT" Fonduna toplanan ianələr

Bu həftə isə 5 dekabr - Beynəlxalq Könüllülər Günü ilə əlaqədar İmişli "ASAN xidmət"də silsilə tədbirlər təşkil olunub. Tədbirlərdə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov, İmişli Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Səfa Ağayev, "ASAN Könüllülük" Məktəbinin rəhbəri Cahangir Hacıyev və digər qonaqlar iştirak ediblər.

Öncə İmişli rayonundakı Şəhidlər xiyabanı ziyarət olunub, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının əziz xatirəsi yad edilib.

Sonra "ASAN Könüllülük" məktəbinin İnnovativ Diskussiya Platforması çərçivəsində "ASAN" könüllüləri, həmçinin Vətən müharibəsi iştirakçıları ilə görüş və ağacəkmə aksiyası keçirilib.

Həmçinin Vətən müharibəsi iştirakçısı olmuş məzun "ASAN" könüllülərinə Dövlət Agentliyinin sədrinin imzası ilə fəxri diplomlar təqdim edilib.

Sonra "Yaşıl ASAN" proqramının "Hər kağızı bir yarpağa dəyişək" layihəsi çərçivəsində reallaşdırılan "Yaşıl dağ" sosial aksiyasına start verilib. Aksiyanın məqsədi kağız israfını azaltmaq və təkrar emalı təşviq etmək yolu ilə ağacların qorunmasına, təbiətin mühafizəsinə və ekoloji balansın saxlanılmasına nail olmaqdır. Bu çərçivədə toplanmış kağız tullantılarının müqabilində əldə olunmuş vəsait Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə yaradılmış "YAŞAT" Fonduna ianə ediləcək.

Beləliklə, Azərbaycanda formalaşmış könüllülük hərəkatı ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır. "ASAN Könüllülük" məktəbinin indiyədək müxtəlif istiqamətlər üzrə təşkil etdiyi 2100 tədbirdə 8900 nəfər maariləfləndirilib. Bu xeyriyyə təşəbbüsü bu gün də davam etməkdədir.

Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın ölkəmizdə könüllülük fəaliyyətinin inkişafına göstərdiyi yüksək diqqət və qayğı, bu sahədə əldə olunan nailiyyətlər və könüllülərin ölkəmizin inkişafında əvəzsiz xidmətləri qarşıdakı dövrdə daha böyük uğurların qazanılacağını deməyə ciddi əsas yaradır.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

---

Bağışlamaq qəlbin böyüklüyüdür

# Tarixi Qələbəyə həsr olunmuş amnistiya humanizmin daha bir təzahürüdür

27 sentyabr 2020-ci il tarixdə başlanmış, əzəli Azərbaycan torpaqlarının düşməndən azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsində əldə edilmiş qələbənin birinci ildönümü münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüs əsasında 5 noyabr 2021-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən minlərlə ailənin sevincinə səbəb olan amnistiya aktı qəbul edilmişdir.

"8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin qərarı əvvəlki illərdə qəbul edilmiş amnistiya aktlarından bir çox xüsusiyyətlərə görə fərqlənməklə, əhatə etdiyi institutların, eləcə də şamil olunacağı şəxslərin dairəsinə görə müstəqil Azərbaycan tarixinin indiyədək qəbul olunmuş ən böyük amnistiyası kimi tarixə düşmüşdür. Belə bir möhtəşəm amnistiyanın qəbul edilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun əzmi sayəsində haqq savaşımızda qazanılan qələbənin tarixi əhəmiyyətini bir daha nümayiş etdirməklə, cəmiyyət arasında dövlətə olan inam hissinin daha da artırılmasına, islah olunmuş məhkumların, törətdikləri əməllərindən səmimi peşmançılıq çəkən şəxslərin yenidən cəmiyyətə inteqrasiya olunmasına xidmət etmişdir. Bu humanist addımla Azərbaycan dövləti bir daha hər bir vətəndaşının hüquq və azadlıqlarının təminatı məsələsinə xüsusi diqqət yetirdiyini, hər bir şəxsi, o cümlədən məhkum olunmuşları öz qayğısı ilə əhatə etdiyini nümayiş etdirmişdir. 5 noyabr 2021-ci il tarixli amnistiya aktının əvvəlki amnistiyalardan əsas fərqi onun müstəsna dərəcədə humanist mahiyyətində təzahür olunmuşdur. Bu humanistliyi səciyyələndirən əsas əlamətlərdən biri amnistiyanın təxminən 16 min şəxsə şamil olunmasıdır. Dövlətin bu addımı sayəsində 16 min şəxs Vətən müharibəsində əldə olunmuş qələbənin sevincini öz ailə üzvləri ilə birlikdə yaşayacaqdır.

Azərbaycan xalqının xilaskarı, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra bütün sahələr, insan və vətəndaş hüquq və azadlıqlarının təminatı sahəsi də diqqət mərkəzində saxlanmışdır. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başlamış Konstitusiya komissiyası tərəfindən əsas insan və vətəndaş hüquqlarının da təsbit edildiyi Konstitusiya layihəsi hazırlanaraq 1995-ci ilin 12 noyabr tarixində ümumxalq səsverməsi yolu ilə qəbul olunmuşdur. Konstitusiyanın 12-ci maddəsində insan və vətəndaş hüquq və azadlıqlarının təminatı dövlətin ali məqsədi olaraq təsbit edilmişdir. Məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra ölüm hökmünün üzərinə moratorium qoyulmuş və 10 fevral 1998-ci il tarixdə isə tam ləğv edilməklə, Azərbaycan Şərqdə ölüm hökmünü ləğv edən ilk dövlət kimi tarixə düşmüşdür. Eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2003-cü ildə xalqın mütləq səs çoxluğunu qazanaraq hakimiyyətə gəldikdən sonra insan hüquqlarını öz siyasətinin mərkəzində yerləşdirərək Ulu Öndər Heydər Əliyevin möhkəm təməllər üzərində qurduğu humanist, uzaqgörən və layiqli siyasətin varisliyini hər sahədə olduğu kimi, insan hüquqlarının təminatında uğurla davam etdirmişdir.

8 noyabr 2020-ci il tarixi Azərbaycanın mədəniyyət paytaxtı və Qarabağın incisi olan Şuşa şəhərinin işğaldan azad edildiyi gün olmaqla yanaşı, həm də Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin həyata keçirildiyi gündür. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün misilsiz xidmətləri olmuş Heydər Əliyevin vəsiyyətinin həyata keçirildiyi gün münasibəti ilə elə onun özü tərəfindən uzunömürlü və xoşməramlı ənənəyə çevrilmiş amnistiyanın tətbiqini Azərbaycan cəmiyyətinin insan hüquqlarına, haqqa-ədalətə inamını daha da möhkəmləndirir.

Dövlət başçısı İlham Əliyevin hakimiyyətə gəlməsindən sonra ümumilikdə 4 amnistiya aktı qəbul edilmişdir ki, bu da təxminən 40 min vətəndaşın amnistiyanın tətbiqi dairəsinə düşməsinə, yəni 40 min ailənin sevinməsinə səbəb olmuşdur. Azərbaycanda sonuncu qəbul edilmiş amnistiya aktı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında 2016-cı ildə 28 May - Respublika Günü münasibətilə qəbul edilmiş və təxminən 10 min şəxsə şamil olunmuşdur.

Eyni zamanda Zəfər Gününə həsr olunmuş amnistiya aktı Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və dövlət başçısı cənab İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilən vətəndaşyönümlü dövlət siyasətinin göstəricisi, eləcə də insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsini özünün ali məqsədi olaraq müəyyən etmiş Azərbaycan dövləti tərəfindən yürüdülən humanist cəza siyasətinin bariz nümunəsi olmaqla, cəmiyyətdə xoş ovqatın yüksəlməsinə, insanların dövlətə olan etimadının və inamının daha da möhkəmlənməsinə gətirib çıxarmışdır. Qəbul olunmuş hazırkı amnistiya aktı islah olunmuş məhkumları cəzadan və ya onun çəkilməmiş hissəsindən azad etməklə, əvvəllər məhkum olunmuş şəxslərin məhkumluqlarının üzərlərindən götürməklə insanları cəmiyyətə faydalı olmağa stimullaşdırmış, o cümlədən belə bir humanist addım atmaqla onların üzərlərinə qanunlara hörmət edən vətəndaş kimi formalaşmağı mənəvi borc kimi qoymuşdur.

Dövlət tərəfindən yürüdülən humanist və insan hüquqlarına hörmət siyasətinin təzahürü kimi çıxış edən amnistiya dövlətin öz vətəndaşlarına olan inam və qayğısını təzahür etdirməklə, cəzadan azad olunacaq şəxslərin dövlətimizin rifahına və inkişafına öz töhfələrini verəcəklərinə də ümidini ehtiva edir. Amnistiya aktına əsasən Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin, habelə həlak olmuş şəxslərin yaxın qohumlarının, döyüş əməliyyatlarında iştirakla əlaqədar, habelə digər xüsusi xidmətlərə görə Azərbaycanın orden və medalları ilə təltif olunmuş şəxslərin, Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı hərbi təxribat nəticəsində əlil və ya həlak olmuş şəxslərin yaxın qohumlarının, həmçinin böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuşdur. Bununla yanaşı, amnistiya qərarına əsasən, ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər, cəzanın çəkilməmiş hissəsi 6 aydan az olan az ağır və ya ilk dəfə ağır cinayət törətmiş şəxslər, cəzanın sonuna 1 ildən az müddət qalmış məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad ediləcəklər.

Eyni zamanda, amnistiya qərarının icrasının təmin edilməsi məqsədilə bütün dövlət orqanları qarşılıqlı əlaqəli şəkildə fəaliyyətə başlamış, buna məsul olan hər bir əməkdaş öz üzərinə düşən vəzifəni layiqincə və qüsursuz şəkildə icra etməyi həm də özünün mənəvi borcu kimi qəbul etmişdir. Dövlət orqanları tərəfindən amnistiyanın təsir dairəsinə düşəcək şəxslərin adaptasiyası, onların sosial-psixoloji durumlarının qaydaya salınması istiqamətində tədbirlər planları müəyyən edilmişdir. Amnistiya qərarının icrası yönündə prokurorluq orqanlarının üzərinə düşən vəzifələrə və onların həyata keçirilməsinə dair Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev tərəfindən 5 noyabr 2021-ci il tarixdə əmr imzalanmış və digər dövlət orqanları kimi prokurorluq orqanları da bu qərarın icrasına cəlb edilmişdir.

Son olaraq qeyd edək ki, amnistiya aktının tətbiq olunacağı şəxslər dairəsi torpaqlarımızın müdafiəsi və azad olunması uğrunda canlarından keçmiş, sağlamlıqlarını itirmiş vətən övladlarına olan dövlət qayğısını, diqqətini, eləcə də onların fədakarlıqlarına dövlət və cəmiyyət tərəfindən verilən yüksək qiyməti bir daha nümayiş etdirir. Bu, eyni zamanda əzəli torpaqlarımız olan Qarabağı və Şərqi Zəngəzuru uzun sürən işğaldan azad etməklə ərazi bütövlüyümüzün bərqərar olunmasının bu şəxslərin şücaəti və dövlət başçısının yüksək idarəçilik bacarığı sayəsində mümkün olduğunu sərgiləyir. Biz haqq savaşımızda əldə etdiyimiz qələbəni Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik bacarığına və rəşadətli Azərbaycan Ordusunun şücaətinə borcluyuq.

***Əli QURBANOV,***
***Tərtər rayon prokuroru,***
***Baş ədliyyə müşaviri***

---

# "Könüllülərin Zəfəri"

## Gənclərin vətənpərvərlik ruhunun daha da yüksəldilməsi hər zaman prioritetdir

**Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllülər İctimai Birliyinin təşkilatçılığı ilə "Könüllülərin Zəfəri" layihəsi keçirilir.**

Layihə çərçivəsində Vətən müharibəsi iştirakçıları, hərbi ekspertlər və Azərbaycanı xarici təşkilatlarda təmsil edən nümayəndələri ilə gənc könüllülərin görüşləri təşkil edilir.

İlk görüş hərbi jurnalist Heydər Mirzə və Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubovun, ikinci görüş rəsmi dövlət nəşri "Azərbaycan" qəzetinin Beynəlxalq həyat, idman və informasiya şöbəsinin redaktoru, Vətən müharibəsi iştirakçısı Rəşad Baxşəliyev və İslam Əməkdalıq Təşkilatı Gənclər Forumu Avrasiya Regional Mərkəzinin icraçı direktoru Vüsal Qurbanovun iştirakı, Azərbaycan Könüllülər İctimai Birliyinin prezidenti İmaməddin Quliyevin moderatorluğu ilə baş tutub.

Qonaqlar 44 günlük müharibə zamanı yaşadıqları xatirələri gənclərlə bölüşüb, eyni zamanda onlar tərəfindən zəfər yolumuzla bağlı verilən sualları ətraflı şəkildə cavablandırıblar.




Vətən Müharibəsi Qəhrəmanı gənc Vüsal Yaqubov, müharibədə qələmini süngüyə çevirən jurnalist döyüşçü Rəşad Baxşəliyev könüllü olaraq yollandıqları İkinci Qarabağ müharibəsində keçdikləri şərəfli yoldan danışaraq xoş xatirələrini bölüşüblər. Rəşad Başxəliyev savaşa jurnalist kimi deyil, Azərbaycan Ordusunun zabiti kimi könüllü yollandığını söyləyib və tabeliyində olan döyüşçü gənclərin hər birinin müqəddəs savaşa könüllü kimi qoşularaq şərəfli missiyanın daşıyıcılarına çevrildiklərini bildirib.

Hərbi jurnalist Heydər Mirzə Vətən müharibəsi dövründə hazırladığı reportajlar barədə məlumat verib və diqqətçəkən məqamları gənclərlə bölüşməklə yanaşı, Azərbaycan hərbçilərinin yüksək döyüş ruhu və çətin vəziyyətlərdə istənilən əməliyyatlara hazır olduğunu vurğulayıb.

İslam Əməkdalıq Təşkilatı Gənclər Forumu Avrasiya Regional Mərkəzinin icraçı direktoru Vüsal Qurbanov isə informasiya müharibəsidə gənclərin rolu, beynəlxalq tədbirlərdə fəal iştirakı və bu istiqamətdə könüllülərin fəallığının artırılmasının zəruriliyini qeyd edib və bu istiqamətdə öz təcrübəsini bölüşüb.

Qonaqlar gənclərə könüllülük fəaliyyəti ilə bağlı məsləhətlər verib və sonda xatirə şəkli çəkdiriblər.

Qeyd edək ki, layihənin icrasının başlıca məqsədi gənclərin könüllülük hərəkatına marağını daha da artırmaq, milli vətənpərvərlik və Vətənə sədaqət ruhunda tərbiyə olunması istiqamətində həyata keçirilən layihələrdə gənclərin fəal iştirakını təmin etməkdir.

Gənclərlə Vətən müharibəsində iştirak edən qəhrəmanların görüşü ilə yanaşı, musiqili klip də hazırlanmışdır. Klip Beynəlxalq Könüllülər Günü münasibətilə 6 dekabr 2021-ci il tarixdə "Cinema Plus"da gənclərə təqdim olunacaqdır.

Musiqili klipdə əsas mesaj könüllülərin iştirakı ilə qızıl hərflərlə tarixin yazıldığı anın qısa musiqili klip şəklində gənclərə aşılanmasıdır. Həmçinin könüllülərin Vətənə və dövlətə sevgi ilə xidmətindən bəhs edilir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

---

# Jurnalistlər Füzuli-Zəngilan avtomobil yolunda minatəmizləmə əməliyyatı ilə tanış olublar

**İşğaldan azad olunan ərazilərdə mina və partlamamış silah-sursatların təmizlənməsi məqsədilə ANAMA tərəfindən plana uyğun olaraq işlər aparılır.**

AZƏRTAC xəbər verir ki, ANAMA və Daxili İşlər Nazirliyinin birgə təşkil etdiyi növbəti mediatur çərçivəsində Füzuli-Zəngilan avtomobil yolunun Cəbrayıl rayonundan keçən hissəsində minatəmizləmə əməliyyatı izlənilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupunun nümayəndəsi Aslan Qiyaslı jurnalistlərə açıqlamasında bildirib ki, azad olunan torpaqlarda minatəmizləmə əməliyyatları sürətlə aparılır: "Əsas məqsədimiz dinc əhalinin təhlükəli ərazilərə keçməsinin qarşısını almaqla bədbəxt hadisələrin baş verməsini önləməkdir. Çünki ərazilər həddən artıq çirkli olduğu üçün hər an bədbəxt hadisələrin baş verməsi qaçılmazdır. Vətən müharibəsindən sonra mina və hərbi sursatların partlaması nəticəsində baş vermiş hadisələrin 53 faizi azad edilən ərazilərə qanunsuz səfərlər nəticəsində yaşanıb. Bu məqsədlə Daxili İşlər Nazirliyinin əməkdaşları üzərlərinə düşən vəzifəni yerinə yetirməklə əhalini təhlükəli ərazilərə səfər etməməyə çağırır". ANAMA-nın əməkdaşı Habil Babayev isə qeyd edib ki, minatəmizləmə əməliyyatı 3 üsulla - əllə, texnika və itlər vasitəsilə aparılır. Relyefi daha çətin olan ərazilərdə mexaniki üsulla, yəni uzaqdan idarə olunan texnikalardan istifadə edilir. Həmçinin minatəmizləmə işləri üçün xüsusi təlim keçmiş itlər də əraziyə cəlb olunub.

"Füzuli-Zəngilan avtomobil yolunun Cəbrayıldan keçən hissəsində daha çox mina basdırılıb. Buradan həm tank, həm də piyada əleyhinə minalar aşkarlanır. Bununla bərabər partlamamış sursatlara və düşmən tərəfindən qurulan digər gizli partladıcılara da rast gəlinir", - deyə o əlavə edib.

Jurnalistlər ərazidən tapılan minaların partlatma yolu ilə zərərsizləşdirilmə prosesini də izləyiblər.



# İqtisadi inkişaf və sosial rifah





## Ermənilərin viran qoyduğu Qarabağ və Şərqi Zəngəzur tezliklə cənnətə çevriləcək

*Əvvəli 1-ci səh.*

Çünki onların məkrli əməllərinə bələdik. Düşmən yaxşı bilirdi ki, bir gün Azərbaycan xalqı öz torpaqlarını onların tapdağından xilas edəcək. Ona görə də bərpa-quruculuq işləri aparmağımızın və soydaşlarımızın doğma yurdlarına qayıtmasının mümkün qədər qarşısını almaq istəmişlər.

İndi erməni faşistləri yenidən müharibə edib qalib gəlmək barədə xam xəyalla yaşayırlar. Rusiyadan ümidləri kəsiləndə Avropaya üz tutur, Avropadan nə isə əldə edə bilməyəndə yenidən Rusiyaya bel bağlayırlar. Azərbaycan xalqı isə Prezidentinə, Ordusuna və özünə güvənir. Dünyanın hansı guşəsində hansı siyasətçinin nə deməsinə əhəmiyyət vermədən doğma torpaqlara həyat gətirir. Prezident İlham Əliyevin torpaqlarımız düşmən işğalından azad olunandan dərhal sonra bəyan etdiyi kimi, biz bu yerləri cənnətə çevirəcəyik.

Bir il ərzində icra olunan layihələrə diqqət yetirdikdə əminliklə deyə bilərik ki, Qarabağ tezliklə Azərbaycanın deyil, dünyanın ən gözəl guşələrindən biri olacaq. Ona görə ki, bu yerlər təbiət etibarilə çox səfalıdır. Həm də ona görə ki, burada bərpa-quruculuq işləri müasir dünya standartlarına uyğun icra edilir. Məsələn, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri insanların ətraf mühitə ziyan vurmadan yaşamasına hesablanıb.

Bölgənin bərpa-quruculuq işlərinə infrastruktur layihələrindən başlanılıb və bu, təsadüfi deyil. Çünki mükəmməl infrastruktur yaratmadan iqtisadiyyatın bərpası və insanların məskunlaşması mümkün deyil. Odur ki, indiyədək yüz kilometrlərlə avtomobil yolunun çəkilməsi istiqamətində xeyli iş görülüb. Tarixi "Zəfər" yolunun çəkilməsi təkcə infrastruktur layihəsi deyil, şanlı qələbəmizə qoyulan abidədir. İndi işğaldan azad olunan ərazilərdə dəmir yolu çəkilir, Zəngilan Hava Limanında tikinti işləri görülür, su xətləri çəkilir.

Həyata keçirilən infrastruktur layihələri sırasında enerji layihələri önəmli yer tutur. Bu da səbəbsiz deyil. İndiki dövrdə iqtisadi inkişafın ən vacib şərtlərindən biri enerji ilə təminatdır. Buna görə də Prezident İlham Əliyev qələbədən dərhal sonra bölgənin etibarlı və dayanıqlı enerji ilə təmin edilməsi barədə müvafiq dövlət qurumlarına göstəriş verdi. İşğaldan azad edilən ərazilərin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədi ilə Prezidentin tapşırığına uyğun olaraq Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının hər birində 110/35/10 kV-luq yarımstansiyalar tikildi. Ağdam rayonunda isə 110/35/10 kV-luq iki yarımstansiya inşa edilməkdədir. "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına "Xındırıstan" yarımstansiyasından 40 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti də çəkilir.

Qeyd edək ki, Azərenerji" tərəfindən Füzulidən Şuşaya 75, Daşkəsəndən isə Kəlbəcərə 70 kilometr məsafədə 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkilib, 110/35/10 kV-luq "Şuşa" və "Kəlbəcər" yarımstansiyaları tikilərək istismara verilib, həmçinin Füzuli şəhərində 110/35/10 kV-luq "Füzuli" yarımstansiyası tikilib, eyni zamanda rayondakı "Şükürbəyli" yarımstansiyası genişləndirilərək tam yenidən qurulub. Bununla yanaşı, "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik yarımstansiyaları yenidən qurulduqdan sonra enerji istehsalına başlayıb.

İşğaldan azad olunan bütün əraziləri dayanıqlı və etibarlı enerji ilə təmin etmək üçün yenə də yarımstansiyalar tikilir və ötürücü xətlər çəkilir. Bu gün energetiklər bölgədə soyuq hava şəraitinə, relyefin çətinliyinə baxmayaraq, gecə-gündüz çalışırlar.

İşlərin xeyli hissəsi görülsə də, qarşıda icrasını gözləyən layihələr hələ çoxdur. Yeni hədəflər daha böyükdür. Burada dağ çaylarının üzərində 22-dən çox kiçik su elektrik stansiyası tikiləcək. Eyni zamanda bölgənin təbii enerji əldə etmək imkanlarından geniş istifadə olunacaq. Artıq xarici sərmayədarlar işğaldan azad edilən ərazilərdə külək və Günəş eherjisi istehsalı sahəsinə sərmayə qoymaq barədə istəklərini bildiriblər. Yəqin ki, yaxın gələcəkdə bu ərazilərdə istehsal olunan enerjinin ixrac edilməsinin də şahidi olacağıq.

**Zəfərin izi ilə**

# Azərbaycan dünyanı heyrətləndirməkdə davam edir

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Zəngilanın Ağalı kənd sakinləri üçün kiçik təsərrüfatlar yaradılacaq

İşğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kənd sakinləri doğma kəndlərinə qayıtdıqdan sonra "ağıllı kənd" layihəsi çərçivəsində onlardan bir qrupu üçün kiçik təsərrüfatlar yaradılacaq.



Layihəni Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və Zəngilan Rayon İcra Hakimiyyəti birgə icra edir.

Kənd sakinlərinin məşğulluğuna və kiçik sahibkarlığa çıxışına dəstək məqsədi daşıyan layihəyə Ağalı kəndinin artıq 30 sakini cəlb olunub. KOBİA tərəfindən onlar üçün biznes təlimləri təşkil edilib. Təlimlərdə iştirakçılara sahibkarlıq fəaliyyəti və müvafiq dəstək mexanizmləri barədə ətraflı məlumat verilib.

Növbəti mərhələdə isə Ağalı kənd sakinləri doğma kəndlərinə qayıdandan sonra Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində avtoservis, inşaat, məişət avadanlıqları ustası, dərzi, bərbər, gözəllik salonu, un məmulatları istehsalı, ticarət və s. iqtisadi sahələr üzrə avadanlıqlarla təmin olunacaq.

## Lənkərana "İnvestisiya səyahəti" təşkil olunub

Maliyyə savadlılığının artırılması və kapital bazarı vasitəsilə maliyyələşmənin təşviqi məqsədilə keçirilən "İnvestisiya səyahəti" layihəsi davam edir.

Azərbaycan Mərkəzi Bankının (AMB), Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Bakı Fond Birjasının (BFB) və investisiya şirkətlərinin birgə təşkilatçılığı ilə həyata keçirilən layihə çərçivəsində növbəti tədbir Lənkəran şəhərində təşkil olunub. Müvafiq qurumların və sahibkarların iştirakı ilə təşkil olunmuş tədbirdə kapital bazarı vasitəsilə maliyyələşmənin və Bakı Fond Birjasında listinqin üstünlükləri barədə danışılıb, kapital bazarı vasitəsilə maliyyələşməyə marağı olan biznes subyektləri ilə bu barədə interaktiv müzakirələr aparılıb, ödənişsiz investisiya məsləhətləri verilib.

## Şamaxıda 1340 tondan çox tərəvəz istehsal edilib



Şamaxı rayonunda tərəvəz məhsullarının tədarükü başa çatıb, fermerlər və fiziki şəxslər sahələrdən 1346 ton məhsul götürüblər.

Rayon statistika idarəsindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, 2021-ci ildə bölgədə 178 hektar sahədə tərəvəz məhsulları yetişdirilmişdi. Əkin sahələri ötən ildəkindən 2 hektar çox olub. Rayonda əsasən kartof, pomidor, xiyar, paxla, kələm və bir sıra digər məhsullar becərilir. Tədarük olunan tərəvəz məhsulları yerli bazarlara, o cümlədən respublikanın iri şəhərlərinə çıxarılır. Cari ildə əksər ərazilərdə, xüsusilə Qaleybuğurd, Mirikənd, Saqiyan, Çuxuryurd, Məlikçobanlı və bir sıra digər icra nümayəndəliklərində bol tərəvəz məhsulları yetişdirilmişdi.

## Daha 39 nəfər imtiyazlı şəxs sanatoriya-kurort, müalicə mərkəzlərinə yola salınıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən daha 39 nəfər əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşaq Heydər Əliyev adına Beynəlxalq Hava Limanından Naxçıvan Muxtar Respublikasındakı sanatoriya-kurort və müalicə mərkəzlərinə yola salınıb.

Sağlamlıq imkanları məhdud uşaqlar valideynlərindən birinin müşayiəti ilə göndəriliblər.

Agentlik tərəfindən verilmiş yollayışlar əsasında yola salınan şəxslərdən bir hissəsi xəstəliklərinə uyğun olaraq "Duzdağ" Fizioterapiya Mərkəzi və "Darıdağ" Arsenli Su Müalicəxanasında, digər hissəsi Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində bərpa-müalicəsi prosedurları keçəcəklər.

Sosial Xidmətlər Agentliyi tərəfindən 2021-ci ilin ötən dövründə Vətən müharibəsi əlilləri də daxil olmaqla ümumilikdə 2141 nəfər imtiyazlı şəxs yollayışla təmin olunaraq bərpa-müalicə prosedurlarına cəlb olunublar.

## Sosial reabilitasiya layihəsinə 6200 uşaq cəlb edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sosial xidmət sifarişi əsasında icra olunan "Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili" layihəsinə 6200 uşaq cəlb edilib.

Layihə üzrə Bakının rayonları da daxil olmaqla 62 rayon və şəhərdə fəaliyyət göstərən sosial reabilitasiya mərkəzlərində autizm, daun sindromlu, eləcə də digər fiziki məhdudiyyətli uşaqlar reabilitasiya xidmətləri ilə təmin edilir. Həmçinin bacarıqlarının inkişaf etdirilməsi üçün hər biri ilə fərdi plan əsasında iş aparılır.

Məqsəd sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasına, onların cəmiyyətə inteqrasiyasında ailələrin bilik və bacarıqlarının inkişafına dəstək verilməsidir.

## Azərbaycan neftinin bir bareli 73 dollara yaxınlaşır

Azərbaycan neftinin qiyməti bahalaşıb. AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,38 dollar artaraq 72,76 dollar olub.



Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti oktyabrın 25-də (88,19) qeydə alınmışdı.

**Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısı çərçivəsində keçirilən tədbir və görüşlərin əksəriyyətində Azərbaycanın nüfuzu və böyük qələbəmizə bəslənilən rəğbət aydın hiss olundu. Bir daha göründü ki, Azərbaycan dərin iqtisadi islahatlara və davamlı sülhə sədaqətini qoruyan dövlətlər sırasındadır.**




## «Zəngəzur dəhlizi reallığa çevrilir»

### İlham Əliyev İƏT-ə üzv ölkələri bu dəhlizdən istifadə etməyə çağırmışdır

Toplantı çərçivəsində İlham Əliyevin Türkiyə, Pakistan, Türkmənistan, Tacikistan və İran İslam Respublikası prezidentləri ilə keçirdiyi görüşlərin hamısında qarşılıqlı münasibətlərin hətta son bir neçə ay ərzində belə fərqli tərzdə dəyişməsinin şahidi olduq. Qələbəmizin birinci ildönümündən sonra baş tutan Zirvə toplantısı göstərdi ki, artıq bütün dövlətlərin liderləri Azərbaycanla iqtisadi əlaqələrin və dostluq münasibətlərinin daha dərindən qurulmasında və müxtəlif sahələrdə iqtisadi əməkdaşlığın genişlənməsində maraqlıdırlar.

Xəbər verildiyi kimi, Zirvə toplantısında mövcud vəziyyət barədə ətraflı fikir mübadiləsi aparılmış, enerji və nəqliyyat məsələləri müzakirə edilmişdir. Azərbaycanın postmünaqişə dövründə Cənubi Qafqazda gedən siyasi proseslərdə aparıcı rolu danılmaz fakt kimi təsdiqlənmişdir. Bu baxımdan dövlətimizin başçısının İran Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü iki qonşu ölkə arasında münasibətlərin daha etibarlı mərhələyə yüksəldiyini təsdiq etdi. İran Prezidenti iki ölkə xalqlarının ürəklərinin bir döyündüyünü, dostluğumuzu gücləndirən tarixi və sivilizasiya birliyinin mövcudluğunu vurğalayaraq dedi ki, başqalarının bizim münasibətlərimizə müdaxilə etməsinə imkan verməməliyik.

Görüşdə Azərbaycan ilə İran arasında "Şimal-Cənub" nəqliyyat, həmçinin Zəngəzur dəhlizləri çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Zəngəzur dəhlizinin reallaşması nəticəsində İranın da ondan faydalanacağı və bu nəqliyyat qovşağından istifadə etmə imkanları vurğulanmış, habelə Azərbaycan, Rusiya və İran arasında enerji qovşağının yaradılması məsələləri müzakirə edilmişdir. Eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, iqtisadi-ticari əlaqələr ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Sonda Azərbaycan və İran prezidentlərinin iştirakı ilə "İran İslam Respublikasının ərazisindən təbii qazın tranzit şərtlərini müəyyənləşdirən Saziş" imzalanmışdır.

Prezident İlham Əliyev İranın kütləvi informasiya vasitələrinə verdiyi müsahibədə bundan sonra İran-Azərbaycan əlaqələrinin bütün sahələrdə yüksələn xətlə inkişaf edəcəyini bildirmişdir: "Azərbaycan Türkmənistan qazını İran üzərindən alacaq. Bu, üçtərəfli əməkdaşlıq üçün çox gözəl zəmindir və bizim niyyətimizi göstərir. İmzalanmış bu sənədin iqtisadi və enerji təhlükəsizliyi baxımından da çox böyük önəmi var".

Seyid İbrahim Rəisi isə iqtisadi əlaqələrin İran üçün nə dərəcədə önəmli olduğunu belə qeyd etmişdir: "Bu gün Azərbaycan, İran və Türkmənistan arasında imzalanan qaz sazişi ölkələrimizin əlaqələrinin, iki və üç ölkə arasındakı münasibətlərin inkişafına xidmət edəcək. Bu sahədə ciddi və çoxsaylı addımların atılması zəruridir və iki ölkənin iradəsi sayəsində ölkələrimiz arasındakı əlaqələr, o cümlədən iqtisadiyyat, ticarət, tranzit, mədəni sahələrdə əməkdaşlıq bu əlaqələrin genişlənməsinə yönəlməlidir. Əlaqələrimizin tarixi qədimdir, bundan sonra da genişlənməli və inkişaf etməlidir".

Prezident İlham Əliyevin Pakistan Prezidenti Arif Alvi ilə görüşündə isə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar Pakistanın tutduğu qəti və prinsipial mövqe xüsusi qeyd olunmuş, iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Yeri gəlmişkən bildirək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Birlikdə gələcəyə" devizi ilə keçirilən Zirvə toplantısının ortaq hədəfləri müəyyənləşdirmək, ticarət həcmini artırmaq, iqtisadi əlaqələri fəallaşdırmaq üçün yaxşı fürsət olduğunu vurğulayaraq demişdir: "Türkiyənin irəli sürdüyü Xəzərdən keçən Şərq-Qərb Orta dəhliz təşəbbüsü və Bakı-Tbilisi-Qars dəmir yolu xətti bu kontekstdəki səylərimizin ən əyani təzahürüdür. Ölkəmizlə bölgəmiz arasında birbaşa avtomobil yolu bağlantısını quracaq Zəngəzur dəhlizinin də önəmi böyükdür".

Prezident İlham Əliyev toplantıdakı çıxışında son 18 il ərzində Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini, ümumi daxili məhsulun üç dəfədən çox artdığını diqqətə çatdırmış, genişmiqyaslı islahatların Azərbaycanda münbit sərmayə iqlimini yaratmağa imkan verdiyini bildirmişdir: "Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir. Bizim strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 6 dəfə çoxdur. Azərbaycanın xarici borcu ölkənin ümumi daxili məhsulunun sadəcə 17,3 faizini təşkil edir. Biz 2030-cu ilin sonuna qədər bu rəqəmi 10 faizə endirməyi planlaşdırırıq".

Dövlət başçısı daha sonra Azərbaycanın nailiyyətlərinin beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirildiyini vurğulamışdır: "Davos Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Yenə də Davos hesabatına əsasən, Azərbaycan əhalinin elektrik enerjisinə əlçatanlıq əmsalına görə dünyada 2-ci, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyəti baxımından 27-ci yerdədir".

Prezident 30 illik işğal dövründə həmin ərazilərdə bütün şəhər və kəndlərin, o cümlədən mədəni və dini irs abidələrimizin Ermənistan tərəfindən yerlə-yeksan edildiyini bir daha Zirvə toplantısında dilə gətirmişdir: "Bütün müsəlmanlara qarşı təhqir və nifrət zəminində Ermənistan bizim məscidləri dağıtmış və təhqir etmiş, o cümlədən onlardan donuz və inək tövləsi kimi istifadə etmişdir. İşğal dövründə həmin ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılmış, digər iki məscidə isə ciddi zərər dəymişdir. Qəbiristanlıqlar da vandalizmə məruz qalmışdır".

Məlum olduğu kimi, Azərbaycan Prezidenti azad olunmuş Qarabağı və Şərqi Zəngəzuru "yaşıl enerji zonası" elan etmişdir. Burada yüksək texnologiyalara əsaslanan "ağıllı" şəhərlər, kəndlər, kənd təsərrüfatı layihələri reallaşdırılır. Azad olunmuş ərazilərin təsdiqlənmiş potensialı 7200 meqavat Günəş və 2000 meqavat külək enerjisidir. Dövlətimizin başçısı çıxışında incə bir məqama toxunmuşdur: "İqtisadi Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə toplantısında mən həmkarlarıma Zəngəzur dəhlizi haqqında məlumat vermişdim. Bu gün deyə bilərəm ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin önəmli hissəsinə çevriləcək. Əminəm ki, İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Bakı Limanında aşırılan yüklərin həcmi 18,2 faiz artıb

Bakı Limanında yükaşırma göstəricisi mütəmadi olaraq artmaqdadır.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən bildirilib ki, cari ilin 10 ayı ərzində Bakı Limanında 4 milyon 707 min ton yük aşırılıb və bu da 2020-ci ilin eyni dövrü ilə müqayisədə 18,2 faizlik artım deməkdir. Ayrı-ayrı sahələr üzrə də müsbət nəticələr əldə edilib.

## Dekabrın 6-na USD/AZN-nin rəsmi məzənnəsi

Azərbaycan Mərkəzi Bankı (AMB) dekabrın 6-na olan USD/AZN-nin rəsmi məzənnəsini açıqlayıb.

AMB-dən bildirilib ki, dekabrın 6-dan etibarən USD/AZN-nin rəsmi məzənnəsi 1,7000 manat səviyyəsində müəyyən olunub.

## Qara metallar və onlardan hazırlanan məmulatların ixracı iki dəfəyədək artıb

Cari ilin yanvar-oktyabr aylarında 127,8 min ton qara metal və ondan hazırlanan məmulatlar ixrac edilib.

Dövlət Gömrük Komitəsinə (DGK) istinadla xəbər verilir ki, hesabat dövründə ixrac edilən qara metal və ondan hazırlanan məmulatların dəyəri 96,3 milyon ABŞ dolları olub.

Xatırladaq ki, 2020-ci ilin on ayında 42,9 milyon dollarlıq 65,5 min ton qara metal və ondan hazırlanan məmulatlar ixrac edilib.

Məlumatları AZƏRTAC yayıb.





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# Ali Baş Komandanımıza, xalqımıza, ordumuza yaraşan Zəfər!

## Rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsində Qarabağımızı işğaldan azad etməklə həm də dünyaya XXI əsrin müharibəsindən necə qalib çıxmağın yollarını öyrətdi

**Azərbaycan az qala 30 illik həsrətdən sonra, nəhayət, işğala son qoydu və Ermənistanı həm hərb meydanında, həm də siyasi arenada məğlub etdi. 44 günlük Vətən müharibəmizin hər günü şanlı tarixdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi. Hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, zabiti bir amalla vuruşurdu: işğala, haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın.**

Və layiq olduğumuz Zəfər çalındı! Xüsusilə, 8 noyabr tarixli şanlı Şuşa qələbəmiz və sonrakı gün 72 kəndin işğaldan azad olunması ermənilərin belini qırdı. Onlar təslim olmağa və kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bununla da Azərbaycan hərbi sahədəki qələbəsini siyasi müstəviyə daşıdı.

Hərbi uğurumuzu bərkidən əsas amillərdən biri də uzun illər ərzində davam etdirilən diplomatik mübarizəmizdir. Bütün beynəlxalq tədbirlərdə və platformalarda Azərbaycan həqiqətlərini çatdırmaq istiqamətində dövlətimiz tərəfindən böyük işlər aparıldı. Həmin işin nəticəsini həm biz, həm də dünya gördü. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və haqq işimizi BMT Təhlükəsizlik Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar dəstəklədi.

Münaqişənin hərbi yolla həll edilməsi qaçılmaz idi. Çünki ermənilər torpaqlarımızı sülhlə vermək istəmir, danışıqları imitasiya məqsədilə aparır və sadəcə torpaqlarımızda möhkəmlənmək üçün vaxt qazanmağa çalışırdı. Ermənistan tərəfinin xüsusilə son 2 il ərzində təxribatçı addımları, bəyanatları və hərəkətləri isə müharibədən başqa çıxış yolu qoymurdu.

Azərbaycan xalqı problemi özü həll etmək məcburiyyətində idi. Ordumuz cəbhədə, döyüş meydanında qələbə qazanmalı idi ki, tarixi ədalət bərpa olunsun, BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilsin və məcburi köçkünlər illərdir ki, həsrətini çəkdikləri öz doğma yurdlarına qayıtsınlar. Və ordumuz bunu cəmi 44 günə etdi. Şanlı Qələbə qazandı. Bundan cəmi bir ay sonra isə 10 dekabr tarixində Zəfər paradımız keçirildi. Azərbaycan döyüş meydanında əldə etdiyi Zəfərə uyğun olaraq möhtəşəm təntənə ilə parad keçirdi və əldə etdiyi Qələbəni qeyd etdi.

Zəfər bayramı isə xüsusi olaraq emosional bir şəkildə, coşqu ilə yaşandı. Çünki uzun illərdən bəri bu bayramın həsrətini çəkirdik. Hər birimiz paradda böyük qürur və fəxarət hissi ilə qalib Azərbaycan əsgərinin keçidini gördük, Ali Baş Komandanımızın nitqinə qulaq asdıq və möhtəşəm bir gün yaşadıq.

Zəfər paradımızla, ümumiyyətlə, qələbəmizlə erməni miflərinə də son qoyuldu. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistanın silahlı qüvvələrini deyil, həm də illərdir kök salmış erməni mifini darmadağın edib. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Təcavüzkar erməni əsgəri haqq uğrunda savaşan Azərbaycan igidləri qarşısında duruş gətirə bilmədi. Azərbaycanda isə heç bir dənə də fərari yox idi. Yaralı əsgər və zabitlərimiz hətta hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, qayıdaq döyüş meydanına.

Bu müharibə ilə Azərbaycan xalqı öz böyüklüyünü, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı Ali Baş Komandanımız, Ordu və Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik. Bu qələbə bütövlükdə Azərbaycan xalqının yenidən dünyaya gəlişi, günəş kimi yenidən doğulması tarixidir. Biz bu şanlı tarixə 44 günlük səbir, dəyanət, cəsarət və qətiyyətlə nail olduq. Əslində müharibəni elə ilk gündən qazandıq: şəhidlərimizin canı, qanı bahasına, xalqımızın iradəsi, xalq-ordu birliyi sayəsində. Biz onların hər birinə minnətdarıq. Onlara deyiləcək tək bir söz var: Vətən Sizi unutmayacaq...

Sevindirici haldır ki, azad olunmuş ərazilərdə quruculuq-bərpa işləri sürətlə davam edir. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayonlara mütəmadi səfərləri xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməli atılır. Qabaqcıl ölkələrin təcrübəsindən istifadə etməklə həmin ərazilərin tez bir zamanda çiçəklənib, dirçəlib, inkişaf edəcəyinə əminik. Torpaqlarımızın bərpası prosesində innovativ texnologiyaların tətbiqi sayəsində az bir zamanda vətəndaşlarımız öz doğma yurdlarına qayıdacaq, yaşayıb yaradacaqlar.

*Malik MUSTAFAYEV,*
*Kəlbəcər rayon 58 nömrəli tam orta məktəbin direktoru*

● Ölümsüzlüyə qovuşanlar

# Xüsusi təyinatlı əfsanəvi döyüşçü

## Düşməni öz dilində pusquya salıb, generalı tərksilah edən şəhid gizir Elyar Vəliyevin şərəfli döyüş yolunun bəzi məqamları

**Vətən müharibəsində canını fəda edərək xalqımıza Qələbə yaşadan cəsarətli oğullarımızdan biri də Xüsusi Təyinatlı Qüvvələrin giziri Elyar Vəliyev olub. O, Cəbrayıl, Hadrut, Füzuli və Şuşa uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlarla yaddaşlarda qalıb.**

2020-ci il oktyabrın 17-də səngərdə olan hərbçilərimiz qəfildən bir erməni əsgərinin qaçdığını görürlər. Elyar ayağa qalxaraq onun ardınca düşür. Bir az keçdikdən sonra görürlər ki, üstü-başı toz içində, əlində bıçaq və "ratsiya" geri qayıdır.

Hələ bu harasıdır. Onun cəngavərliyini təsdiqləyən o qədər hadisələr olub ki... İgid döyüşçü Cəbrayıl uğrunda gedən döyüşlər zamanı düşmən tərəfindən qənimət kimi ələ keçirdiyi 40 tapançanı komandirə təhvil verəndə hər kəs çaş-baş qalır. Axı sıravi əsgərdə tapança olmur. Bu o deməkdir ki, düşmənin 40 zabiti "tərksilah" edilib.

Sonuncu döyüşü oktyabrın 19-da Şuşadan 14 kilometr aralıda, Qırmızı Bazarda olub. Gülləleri qurtarana qədər döyüşüblər. Elyarı müxtəlif istiqamətlərdə yaxın məsafələrə qumbara atanda ürəyindən vurublar. O, "Allahu-Əkbər" deyərək yerə yıxılıb.

Vətən müharibəsində Füzulinin, Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 19-da Elyar Vəliyevin də tərkibində olduğu 40 nəfərlik qrup Qubadlı döyüşləri zamanı, Laçın dəhlizinə nəzarəti ələ keçirmək üçün strateji əhəmiyyətə malik mövqelər uğrunda ölüm-dirim savaşına qalxıb. Döyüşlər qeyri-bərabər şəraitdə keçib. Ermənistan tərəfdən 150-200 nəfərdən ibarət heyət döyüşüb. 7 saatdan çox davam edən ağır döyüşlərdə Xüsusi Təyinatlı Qüvvələrdən ibarət qrupdan dörd nəfər - baş gizir Sübhan Cəbrayılov, baş gizir Camal İsmayılov, gizir Şəhriyar Quliyev və gizir Elyar Vəliyev şəhid olub.

Beləliklə, "Vətəni sevmək imandandır" deyiminin ən parlaq nümunələrindən biri də 44 günlük Vətən müharibəsinin xüsusi təyinatlı şəhidi Elyar Vəliyevdir.

Elyar Arif oğlu Vəliyev 1991-ci il oktyabrın 17-də Qobustan rayonunun Sədəfli kəndində anadan olub. Məhz doğma Vətəninə olan bağlılığı, yurd sevgisi gənc Elyarı Xocalının və digər faciələrdə amansızlıqla qətlə yetirilən həmvətənlərinin qisasını almağa çalışan cəsur döyüşçü kimi tanıdıb.

Tale elə gətirdi ki, ömrünün 29-cu payızında gizir Elyar Vəliyevin doğum gününə edəcəyi hədiyyə də qeyri-adi oldu: iki gün sonra ən uca zirvəni - şəhidlik məqamını fəth etdi...



Atası Arif Vəliyev onu xaraktercə sərt bir övlad kimi xatırlayır: "Elyar 2016-cı və 2020-ci illərdə 3 döyüşdə iştirak edib. Çoxlu yaralanmış döyüş dostlarının xilası üçün ölümün gözünə dik baxıb. Onlar Vətən müharibəsi zamanı düşmənin 12 tankını, 200-ə yaxın canlı qüvvəsini məhv edib, bir yaralı erməni əsgərini əsir götürüblər. Cəbrayılın azad edilməsi zamanı bir hərbi avtomobili partladıblar, yüksək rütbəli erməni zabitlərini, eləcə də "KamAZ" dolu quldur silahlıları məhv ediblər. Elyar düşmən qərargahını ələ keçirib və erməni polkovniki ilə əlbəyaxa olub. Ondan qisasını alıb. Hə, deyirlər ki, gülləsi qurtaranadək döyüşüblər..."

Anası Səmayə xanım deyir ki, Elyarın qardaşı da hərbçidir: "İki oğlum var. Hər ikisi hərbçidir, müharibədə iştirak ediblər. Sonuncu dəfə oktyabrın 18-də Elyarla telefonla danışmışdıq. Ayın 19-da şəhid olub..."

Elyarın dəfələrlə həyatlarını xilas etdiyi hərbçi yoldaşları bu gün onu ehtiramla yad edirlər. Şəhidimizlə çiyin-çiyinə döyüşən Səxavət Salmanov bildirir ki, Elyar Vəliyevin əhatəsində olan 50 nəfərlik dəstə 600 nəfərlik erməni ordusunu tamamilə məhv edib.

Şəhidin idman müəllimi Sərhad Quliyev də onunla fəxr edir: "Mən ona əlbəyaxa döyüşün sirlərini öyrətmişəm. O, idman sahəsində əldə etdiyi, qazandığı nə vardısa, torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə göstərdi. O, əsl qəhrəman idi".

Döyüşçü dostları arasında "Canavar" ləqəbi ilə çağırılan cəsur döyüşçü ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görüldü.

Şəhid Elyar Vəliyev ailəli idi. Həyatındakı qeyri-adiliklərdən biri də övladlarının üçəm olması idi. Beş övlad atası bunu da Yaradanın onun ailəsinə sovqatı hesab edirdi.

Xatirəsinin əbədiləşdirilməsi məqsədilə onun adı Qobustan rayonunun mərkəzi küçələrindən birinə verilib.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Vətənə gərək oğullar

# Qürur duyuram ki...

**Vətən - Ana qədər əziz, candan da şirindir. Canını Vətən uğrunda qıyan övladlar birdimi, mindimi?! Sevinirəm ki, mən də o minlərdən biriyəm.**

Uşaqlıqdan Vətən sevgisi qəlblərində boy atanlarımızın bir nisgili vardı - Qarabağı düşməndən azad etmək. Ermənilər xalqımızın minillik tarixə malik ulu yurd yerlərini işğal edəndə düşünməmişdilər ki, onlar burada kök atıb, qollu-budaqlı ola bilməyəcəklər?! Çünki Qarabağ tarixi Azərbaycan ərazisidir, Vətən övladları işğalla barışmayacaqlar.

Xəyallarımda Qarabağı bəlkə də teleekranlarda gördüyüm dünyanın əlçatmaz, qeyri-adiliklərlə məşhur olan gözəlliklər diyarı ilə müqayisə edirdim. Amma gözlərimlə görmədiyim, torpağına ayaq basa bilmədiyim üçün xəyallarım nağıllardakı kimi ağ-qara rəngli olardı. Sən demə, heç də elə deyilmiş.

Getdim və gözlərimlə gördüm ki, cənnətməkandır Qarabağ! Bu gözəl diyar öz sahiblərini gözləyirdi.

18 sentyabr 1999-cu ildə Göygöl rayonunun Pənahlılar kəndində anadan olmusam. Orta məktəbi bitirdikdən sonra uşaqlıqdan musiqiyə olan həvəsimin arxasınca getmişəm: 2015-ci ildə Gəncə Musiqi Kollecinə daxil olub, təhsilimi başa vurmuşam. Qarşıda bir borcum vardı: Vətənə xidmət göstərmək. 2019-cu il iyulun 4-də "N" saylı hərbi hissədə xidmətə başladım. Zenit Raket Diviziyasında xidmət edirdim.

Torpaqlarımızda talançılıq edən düşmənə layiqli cavab vermək üçün fürsət və əmr gözləyənlərdən biri də mən idim. Nəhayət, vaxt, zaman yetişdi və biz həmin əmri aldıq. Füzuli, Cəbrayıl, Qubadlı və Laçın uğrunda gedən döyüşlərdə iştirak etdim.

Döyüş günlərində yaddaqalan, unudulması mümkün olmayan hadisələr az olmadı. Bir faktı xüsusi qeyd edim. 2020-ci il oktyabrın 29-da Qubadlının Xəndək kəndi ətrafında gedən şiddətli döyüşlər zamanı ermənilərə məxsus raketi götürərək, "SU-25" tipli döyüş təyyarəsini məhv etdik. Bu, düşmənin öz silahı ilə özünə ağır zərbə demək idi.



Mən hələ düşmənin neçə-neçə ağır artilleriya silahını, hərbi texnikasını, tank və BTR, BMP, qrad qurğularını işlək vəziyyətdə qənimət kimi ələ keçirdiyimizi demirəm. Bunlardan bir qismi Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş etdirilir.

Nəhayət, Zəfər çaldıq! Bu Qələbənin müəllifi Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevdir! Məhz Azərbaycan Prezidentinin qətiyyətli iradəsi, xalq-hakimiyyət-ordu birliyinin yaratdığı "Dəmir yumruğ"un düşmənin başına enməsi ilə tarixi ərazilərimizi bərpa etdik.

Xidməti vəzifəmdən 2021-ci il 2 iyul tarixində təxris olunmuşam. İkinci Qarabağ savaşındakı döyüş yoluma görə "Vətən uğrunda" medalı ilə təltif edilmişəm. Bununla qürur duyuram, axı bu Zəfərin əldə edilməsində mənim də xidmətim olub.

*Elvin HÜSEYNZADƏ,*
*Vətən müharibəsinin qazisi*

● Tarix yazanlar

# Taleyini Vətənin bütövlüyünə bağışladı

**44 günlük Vətən müharibəsində iştirak edən, qələbə üçün qanı və canını əsirgəməyən vətən oğullarının əziz xatirəsi illər, əsrlər ötsə də, xalqımızın qəlbində əbədi yaşayacaqdır. Onlardan biri də Qubanın Xırt kənd sakini Taleh Ədalət oğlu Salamovdur.**

Şəhidin məzarını ziyarət etmək üçün yolumuzu Xırta saldıq. Kənd rayon mərkəzindən 40 kilometr məsafədə - Quba-Qonaqkənd yolunun üstündə yerləşir. Yolboyu yaşayış məntəqələrindən keçəndə şəhid olmuş igidlərimizin böyük portretlərinə rast gəldik. Hər dəfə də maşını saxlayıb onların ruhuna dualar etdik.

Qam-qam kəndində şəhidlərin şərəfinə ucaldılmış abidə kompleksinin qarşısında dayanırıq. Kompleksdəki lövhədə Talehin də şəkli var. Burada tikilmiş bulaqlar, müxtəlif çiçəklərdən salınmış çəmənlik kompleksə möhtəşəmlik bəxş edirdi. Elə buradaca məktəblilər - Polad Səfərəliyev, Muhyəddin Abdullayev və Simran Əliyevlə tanış olduq. Söhbət zamanı məlum oldu ki, onlar digər həmyaşıdları ilə birgə hər gün buraya gəlir, kompleksdə səliqə-sahman yaradırlar.

Bəli, dağ oğulları uşaqlıqdan mərd, mübariz böyüyürlər. Şəhidin atası Ədalət kişi yol boyu söhbət edərək oğlunun həyat lövhəsini bir rəssam kimi müxtəlif boyalarla qəlbimizə həkk etdi. Talehin uşaqlıq illərində necə şıltaq, dəcəl olmasından, hər dəfə işdən qayıdanda qabağına yüyürməsindən, gənclik illərində isə qorxmaz dəliqanlı kimi ad çıxarmasından, hətta bir dəfə ayı balasını tutub gətirməsindən danışır və danışdıqca kövrəlirdi. Əlbəttə, övladını itirmiş bir valideyn üçün keçmişə qayıtmaq, ötüb-keçənlərdən danışmaq həm ağır, həm də təsəllivericidir. Sözlər, kəlmələr dodağından süzüldükcə ürəyindəki yanğını büruzə verir, uşaq təki kövrəlir, gözlərində yaş damcıları parlayırdı.

Nəhayət, kəndə çatırıq. Ədalət kişi bizi evə dəvət edir. Burada şəhidin ömür yoluna həsr edilən guşə bir daha qəhrəmanımızın igidliyini göz önündə canlandırır. Vətən oğlunun qanı bahasına qazandığı medallar, hərbi geyi-



mi, döyüş çantası, xidmətdə və uşaqlıq illərində çəkdirdiyi fotolar bir gəncin həyatının anlarını əks etdirirdi.

Nəfəsimizi dərdikdən sonra qəbiristanlığa yol alırıq. Ədalət kişi fikirli-fikirli "bu yolu mən salmışam" deyir. Onu da qeyd edək ki, Ədalət kişi uzun illər yol idarəsində traktorçu işləyib, ucqar dağ kəndlərinə yeni yolların çəkilişində iştirak edib. Onun 7 övladı olub - 4 qız, 3 oğlan. Taleh ortancıl övladı idi. Həyat yoldaşı Məryəm xanımı 2014-cü ildə 49 yaşında itirib. O gündən ailənin bütün ağırlığı Ədalət kişinin üzərinə düşüb. İndi də Taleh...

Bu da şəhidin uyuduğu qəbiristanlıq. Talehin məzarının üstündə əklillər vardı. Əklillərin biri şəhid ailələri, digəri isə ailə üzvləri tərəfindən ad günündə qoyulmuşdu. Talehin məzarı önündə bir xeyli dayandıq, qəhrəmanın həyat yolunu vərəqlədik. Ədalət kişi əlindəki telefonda oğlunun səs yazılarını səsləndirdi. Həyəcansız dinləmək olmurdu. Döyüşdə olduğu günlərdə "Ata, çox istəyirəm qızımı görüm", yaralı olduğu vaxt isə "Sümüyüm, ayağım ağrıyır" ismarışlarını göndərmişdi atasına. İnsanı kövrəldən bu ismarışlar şəhidin son sözləri idi.

Salamov Taleh Ədalət oğlu 1992-ci il yanvarın 16-da Qubanın Xırt kəndində anadan olub. İbtidai məktəbi bitirdikdən sonra Zizik kəndində təhsilini davam etdirib. Bakıda hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət 11 saylı Yol İstismar İdarəsində çalışıb. Hələ uşaqlıqdan hərbçi olmaq arzusu ilə yaşayan Taleh 2016-cı ildən xüsusi təyinatlı hərbi hissədə müddətli hərbi xidmətə başlayıb. Müxtəlif kurslarda təhsil alaraq kiçik çavuş kimi kəşfiyyatçı ixtisasına yiyələnib.

İkinci Qarabağ müharibəsi başlayanda Taleh də həmyaşıdları kimi odun-alovun içinə atılıb. 30 il işğal altında qalmış torpaqlarımızın, o cümlədən Talış, Suqovuşan və digər yaşayış məntəqələrinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Dəfələrlə düşmən bölmələrinin arxasına keçərək kəşfiyyat işləri aparıb, mühüm məlumatlar əldə edib. Mühasirədə olan 8 döyüş yoldaşının həyatını xilas etməsi isə onu qəhrəman kimi tanıdıb. Həmin döyüşçülər indi də sağ qaldıqlarına görə Talehə minnətdar olduqlarını bildirirlər.

Talehin vətən, torpaq sevgisi o qədər güclü idi ki, hətta yaralandığı halda hospitala yox, yenidən döyüş tapşırığını yerinə yetirmək üçün kəşfiyyata gedib. Lakin bu dəfə - oktyabrın 13-də düşmənin qurduğu pusquya düşərək son gülləsinədək döyüşüb. Onun nəşi noyabrın 29-dək neytral ərazidə qalıb, yalnız noyabrın 30-da doğulduğu Xırt kəndində torpağa tapşırılıb.

Ölümü ilə ölümsüzlüyə qovuşan Taleh "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Talehdən bir də Ayşən adlı 3 yaşlı qızı yadigar qalıb. İndi həyat yoldaşı Tamilla xanımın istəyi, arzusu onu atasının adına layiq övlad kimi böyütməkdir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

◆Elm xadimləri

# Tanınmış alim, dəyərli insan

**Texnika elmləri doktoru, professor Rafiq İsrafil oğlu Mehdiyev təkcə Azərbaycanda və MDB məkanında deyil, beynəlxalq səviyyədə təbəqələşdirilmiş yanıcı qarışıqla işləyən farkomer-məşəllə alışdırmalı avtomobil mühərriklərinin yaradılması sahəsində tanınmış alim, Azərbaycan mühərrikçilər elmi məktəbinin əsasını qoyanlardan biridir.**

1936-cı ilin dekabrında Cəbrayıl rayonunda doğulan R.Mehdiyev 1958-ci ildə ozamankı Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) mexanika fakültəsini bitirib, 1964-cü ildə namizədlik, 1981-ci ildə indiki Sankt-Peterburq Texniki Universitetində doktorluq dissertasiyasını müdafiə edib.

300-dən çox elmi əsərin, 15-ə yaxın ixtiranın müəllifi olan alimin son ixtiralarından biri maye qazla işləyən dizel mühərrikidir və bu ixtira Türkiyədə böyük uğur qazanıb. Bir sıra ixtiraları bəzi Qərb dövlətlərində, o cümlədən İngiltərə, İtaliya, Almaniya, eləcə də Rusiya və Yaponiyada patentləşdirilib. Yetişdirdiyi 20-dən artıq alimin arasında Almaniya, Hindistan, İraq, Suriya və Ukrayna vətəndaşları da var.

1967-ci ildə Daxiliyanma mühərrikləri və avtotraktor kafedrasının dosenti, 1983-cü ildən professoru olub və həmin kafedraya uzun müddət rəhbərlik edib. Sonra isə AzTU-nun nəzdində fəaliyyət göstərən "Motor yanacaqları və ətraf mühit" ETİ-nin elmi rəhbəri kimi çalışıb.

Görkəmli ziyalı, ictimai xadim, professor Rafiq Mehdiyevlə məni uzun illərdir sıx dostluq telləri bağlayır. Rafiq müəllimin çox maraqlı və zəngin elmi yaradıcılıq yolu olmuşdur. Mənalı həyatını doğma Azərbaycanımızın elm və təhsilinin inkişafına sərf etmiş professor respublika iqtisadiyyatının ən mühüm sahəsi olan nəqliyyat kompleksinin idarəetmə problemlərinə dair bir çox elmi əsərlərin, o cümlədən monoqrafiyaların, kitabların müəllifidir.

Rafiq müəllim ən çətin dövrlərdə Azərbaycan Texniki Universitetinin rektoru olmuşdur. Ümumiyyətlə, R.Mehdiyev işlədiyi bütün vəzifələrə məsuliyyətlə yanaşmışdır və bu gün də belədir. Onun insanlara çox sadə, səmimi münasibəti var. Elə insanların da ona məhəbbəti, cəmiyyətdəki nüfuzu məhz bu münasibətin nəticəsidir. Təsadüfi deyil ki, o, vətənində, elmi ictimaiyyət arasında həm də etibarlı dost və şəxsiyyət kimi tanınır. Rafiq müəllim bu hörməti elmi və praktik fəaliyyəti, savadına görə qazanmışdır. Seçdiyi elmə və ixtisasına sədaqəti onu əldə etdiyi yüksək nəticələrə gətirmişdir. O, öz zəkası ilə istər elm sahəsində, istərsə də bir təşkilatçı, rəhbər kimi həmişə seçilmişdir. Tədqiqatlarını nəzərdən keçirdikcə professorun elmi maraq və fəaliyyət dairəsinin nə dərəcə geniş olduğu dərhal gözə çarpır.

Rafiq müəllim ictimai həyatda da fəal iştirak edir. O, milli və beynəlxalq elmi-praktik konfranslarda, Azərbaycanın hüdudlarından kənarda keçirilən simpoziumlarda tanınmış alim və mütəxəssis kimi mühazirələrlə çıxış edir.



*"MR-Proses" yanma mexanizmi ilə LPG-yə çevrilən yanacaqla işləyən TÜMOSAN traktorunun təqdimatı (soldan) professor Rafiq Mehdiyev, İstanbul Texniki Universitetinin rektoru və TÜMOSAN-ın baş müdiri*

Rafiq Mehdiyev respublikada yüksəkixtisaslı və elmi-pedaqoji kadrların attestasiyası sahəsində dövlət siyasətini həyata keçirən dövlət orqanı - Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) rəyasət heyətinin üzvü kimi də fəaliyyət göstərmişdir. Təbii ki, elmin gələcəyini düşünən alim yüksəkixtisaslı kadrların hazırlanmasından da kənarda qala bilməzdi. Bu səbəbdən Azərbaycan müstəqillik əldə etdikdən sonra yaradılan Ali Attestasiya Komissiyası rəyasət heyətinin ilk üzvlərindən biri prinsipiallığı, obyektivliyi, yüksək elmi ilə fərqlənən Rafiq müəllim oldu. O, gənc alimlərin yetişməsində müstəsna fəallıq göstərdi. AAK-nın sədri Azad Mirzəcanzadə kimi, Rafiq müəllim də gənc tədqiqatçılara xüsusi qayğıkeşlik, tələbkarlıqla yanaşır, onlara meydana çıxan çətinliklərin həllində kömək edir, dissertasiyalarının vaxtında müdafiəyə təqdim olunmasına çalışırdı.

Rafiq Mehdiyev saf əqidəli vətən övladıdır. Onun vətəndaş mövqeyi, vətənpərvərliyi, gənc nəslin təlim-tərbiyəsində rolu, yetişdirdiyi alimlərə diqqət və qayğıkeşliyi elmə, milli-mənəvi dəyərlərimizə, vətən torpağına bağlılıqdan qaynaqlanır.

Professorun tədqiqatlarında müasir dövrdə ətraf mühitin həddindən artıq çirklənməsi ilə bağlı meydana çıxan problemlər, dünya enerji istehsalında 90 faizdən çox payı olan neftdən istehsal edilən karbohidrogen tərkibli yanacaqların mövcud yanma metodunun qüsurları araşdırılır. Rafiq müəllim 2020-ci ildə mühərrikçi alim kimi elmi-tədqiqat layihəsi hazırlayaraq hökumətə təqdim etmişdir. Bu layihələrdən biri "Azərmaş" ASC-nin istehsalı olan Khazar (Xəzər) avtomobilinin Peugeot tipli mühərrikinin "MR-Proses" yanma mexanizmini tətbiq etməklə modernizə edib işlənmiş qazların yüksək ekoloji təmizliyi və az yanacaq sərfi ilə dünya səviyyəsində seçiləcək bir avtomobilin ərsəyə gətirilməsinə həsr olunmuşdur. LPG yanacağı ilə işləyən TÜMASAN traktor mühərrikindən fərqli olaraq bu layihədə özəl cüt sorma klapanları, silindr başlığı və sorma kollektoru olan mühərrikin layihələndirilməsi nəzərdə tutulmuşdur.

Mühərrikçi alimin təqdim etdiyi elmi tədqiqat layihələrinin Energetika və İqtisadiyyat nazirliklərində müzakirəsi koronavirus pandemiyasına görə müvəqqəti təxirə salınmışdır. Lakin Rafiq müəllim ümid edir ki, bu bəşəri bəla səngiyəndən sonra bütün dünyanı maraqlandıran və Azərbaycan patenti ilə qorunan yeni mühərrikin layihələndirilməsi və istehsalı ilə əlaqədar çalışmalara başlamaq mümkün olacaqdır. Onun öz sözləri ilə desək, bununla həm də Ulu Öndər Heydər Əliyevin Azərbaycanda qabaqcıl avtomobil sənayesini inkişaf etdirmək arzusu reallaşacaqdır.

Uzun illər qardaş Türkiyədə - İstanbul Texniki Universitetində çalışmış, elmə öz mühüm töhfələrini vermiş Rafiq müəllim hazırda doğma vətənində - Azərbaycandadır. Heç şübhəsiz ki, hamımızın arzusunda olduğumuz doğma torpaqlarımızın - Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi 85 yaşlı Rafiq müəllimi də çox sevindirir. O, özünü ata ocağı - doğma Cəbrayılın düşmən tapdağından azad olunmasının sevincini yaşadığı üçün xoşbəxt hesab edir.

Bəli, yaxşılığa, xeyrə xidmət edən insanların əməyi heç vaxt hədər getmir. Müasirləşən və gündən-günə qloballaşan dünyamız isə məhz professor Rafiq Mehdiyev kimi belə insanların çiyinləri üzərində dayanır.

***Ziyad SƏMƏDZADƏ,***
***akademik***

# Ümumşəhər sanitar günündə Bakıda 550 küçə dezinfeksiya edilib

Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə dekabrın 4-də paytaxtda ümumşəhər sanitar günü keçirilib.

AZƏRTAC xəbər verir ki, keçirilən sanitar tədbirlərdə kommunal xidmətlərin xüsusi texnikaları, qurumların əməkdaşları ilə yanaşı, paytaxt sakinləri və özəl sektor nümayəndələri də yaxından iştirak ediblər. Gün ərzində həyata keçirilən işlər zamanı 550 küçə dezinfeksiya olunub. Bakı Şəhər İcra Hakimiyyəti paytaxt sakinlərini əmin edir ki, qalib ölkənin vətəndaşları olaraq Yeni ili təmiz şəhərlə qarşılayacaqlar.



# Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda dekabrın 5-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 6-9°, gündüz 11-14° isti, Bakıda gecə 6-8° isti, gündüz 11-13° isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 5-6-da Abşeron yarımadasında gilavar küləyinin arabir güclənəcəyi gözlənilir ki, bu da bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-15° isti, dağlarda gecə 4-9° şaxta, gündüz 3-8° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 9-14° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə yağıntılı olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, dağlarda 4-9° şaxta, gündüz 3-8° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-15° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacağı ehtimal edilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-15° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 1-4°, gündüz 9-14° isti, dağlarda gecə 0-4°, gündüz 6-10° isti olacaq.

◆Yeni nəşrlər

# Yarımçıq ömrün həqiqətləri

## "Bəşir bəy Aşurbəyov və zəmanəsi" kitabında bu parlaq şəxsiyyət dövrünün mürəkkəb ictimai-siyasi mühiti ilə birgə təqdim edilir

**Müasir Azərbaycan ədəbiyyatında tarixi oçerk janrında əsərlər o qədər də çox deyildir. Bu da ilk növbədə, tarixi oçerkin real həyat süjetinə malik olması, böyük sayda sənədlərin və tarixi ədəbiyyatın təhlili əsasında yazılmasıdır.**

Müəllifin ədəbi təxəyyülü dəyişdirilməsi mümkün olmayan tarixi sənədlərlə məhdudlaşdırıldığı üçün, bu cür əsərləri yazmaq qələm əhlindən həm xüsusi ədəbi bacarıq, həm də tarixçi təfəkkürü tələb edir. Tarixi oçerkin diqqətəlayiq daha bir tərəfi isə burada dövrün hadisələrinin axıcı dildə, oxucunu yormadan təsvir edilməsidir.

Respublikanın əməkdar jurnalisti İradə Əliyevanın oxucuların diqqətinə təqdim etdiyi "Bəşir bəy Aşurbəyov və zəmanəsi" adlı kitabı da arxiv araşdırmalarının nəticəsi olub, XX əsrin əvvəllərində Azərbaycanın məşhur neft sahibkarlarından və xeyriyyəçilərindən biri, ictimai-siyasi xadim Bəşir bəy Aşurbəyovun (1875-1930) həyatına həsr edilmişdir. Arxiv sənədləri ilə yanaşı, tarixi ədəbiyyatın dərin tədqiqi və həmçinin şahidlərin xatirələri əsasında yazılmış kitab təkcə Bəşir bəy Aşurbəyovun həyatının deyil, həm də yaşadığı dövrün tarixi oçerkidir.

Aşurbəyovlar Azərbaycanın məşhur ailələrindən olmuşdur, bu ailənin soykökü isə Aşur xan Əfşara dayanır. Hələ VII-VIII əsrlərdə mənbələrdə, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanlarında haqqında bəhs olunan Əfşarlar məşhur Oğuz boylarından olub, təkcə Azərbaycanın deyil, həm də bütün Ön Asiyanın siyasi həyatında böyük rol oynamışlar. Bu boyun görkəmli nümayəndələrindən biri də Əfşar dövlətinin qurucusu Nadir şah Əfşardır. Məhz Nadir şahın hakimiyyəti dövründə əfşarların bir qismi Bakı və ətraf kəndlərdə məskunlaşmış, Azərbaycanın şimalının ruslar tərəfindən işğalından sonra bu boyun nümayəndələri Aşurbəyov olaraq tanınmağa başlamışlar.

Bir müddət sonra Bakıdakı sənaye müəssisələri və neft sahələri sayəsində Şimali Azərbaycanın ən məşhur və zəngin ailələrindən birinə çevrilən Aşurbəyovlar həm ictimai-siyasi fəaliyyətləri, həm də xeyriyyəçilikləri ilə məşhur olmuşlar. Nabat xanım Aşurbəyova, Hacı Əjdər bəy Aşurbəyov, Teymur bəy Aşurbəyov, Əli bəy Aşurbəyov, Balabəy Aşurbəyov, Sara xanım Aşurbəyova bu ailənin nümayəndələrindəndir. Haqqında bəhs etdiyimiz tarixi oçerkin qəhrəmanı da məhz həmin nəsil şəcərəsinin görkəmli nümayəndələrindən biri olan Bəşir bəy Aşurbəyovdur.




Bəşir bəy Aşurbəyov 1875-ci ildə Bakının Sabunçu kəndində, tacir və mülkədar Hacı Məhəmmədhəsən bəyin ailəsində doğulmuş və ailənin yeganə oğlu olmuşdur. Atasından qalmış geniş torpaq sahələri və böyük neft mədənləri sayəsində Bəşir bəy Aşurbəyov artıq gənc yaşlarından zəngin sərvət sahibi olmuş, amma onun xeylı qismini, Aşurbəyovların digər nümayəndələri kimi, xalqının yolunda xeyriyyəçiliyə sərf etmişdir. Bəşir bəy ələlxüsus maarif və təhsilə böyük vəsait ayırmışdır. Təsadüfi deyil ki, onun himayədarı olduğu azərbaycanlılar arasında Cəfər Cabbarlı və Məmməd Səid Ordubadi də var idi.

Bəşir bəy Aşurbəyov çar Rusiyasının müstəmləkə zülmü altında olan ölkəsinin gələcək inkişafı, ictimai-siyasi vəziyyəti ilə də yaxından maraqlanmış, "Qafqaz İttihad Firqəsi"nin yaradıcılarından olmuşdur. Məhz bu firqənin fəaliyyətinin sonralar sovet dövlət qurumları tərəfindən təhqiqi onun repressiyaya uğramasına gətirib çıxarmışdır. Bəşir bəy Aşurbəyovun ictimai-siyasi fəaliyyətinin önəmli tərəflərindən birini də erməni daşnakları ilə mübarizə təşkil etmişdir. Erməni daşnaklarının Azərbaycanda türk müsəlman əhaliyə qarşı törətdikləri qətliamların qarşısını almaq, Azərbaycan türklərinin qətllərinə yol verməmək üçün canından keçməyə hazır olan yüzlərlə mütəfəkkir və xeyriyyəçi kimi Bəşir bəy Aşurbəyov da bu illərdə böyük şücaət göstərmiş, minlərlə müsəlmanın ölümünün qarşısını ala bilmişdir.

Sovet hakimiyyəti dövründə sərvəti və mülkləri müsadirə edilən Aşurbəyovlar ailəsinin bir çox nümayəndəsi, yüz minlərlə Vətən sevdalısı kimi sovet repressiyasının qurbanı olmuş, kimisi sürgünə göndərilmiş, kimisi də güllələnmişdir. Bəşir bəy Aşurbəyov isə "Qafqaz İttihad Firqəsi"nin fəal üzvlərindən biri olaraq beşillik həbs cəzası çəkmiş, 1930-cu ildə "antisovet təbliğatı" maddəsi ilə güllələnmişdir. Ona 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra bəraət verilmişdir. Sovet ideologiyası və cəza maşını Bəşir bəy Aşurbəyovu azərbaycanlılara unutdura bilməmiş, bütün qadağalara və qorxulara baxmayaraq, xalqının xatirəsində yaşamışdır.

Kitabda Bəşir bəy Aşurbəyovun qayınatası - görkəmli zadəgan Allahyar bəy Zülqədərova da geniş yer verilmişdir. Bu görkəmli şəxsiyyət Peterburqda Meşəçilik Akademiyasını bitirmiş, Gəncə şəhər Dumasının üzvü, Gəncə Quberniyasının Şəmkir qəzasının rəisi olmuşdu.

Bəşir bəy Aşurbəyov kimi şəxsiyyətlərin həyatı və fəaliyyəti vətənpərvərlik və millət sevgisinin örnəyidir və gənc nəslin tərbiyəsində misilsiz rol oynayır. Millət sevdalı insanların keçdiyi iztirablı, amma bir o qədər də qürurlu həyat yolu Vətən övladlarının gələcəyinin bələdçisi kimi çıxış edir. "Bəşir bəy Aşurbəyov və zəmanəsi" adlı kitab da bu nəcib vəzifədən irəli gələrək yazılmışdır. Tarixi oçerk janrının bütün gücündən istifadə edib bizə bu parlaq şəxsiyyətin faciəli həyatını təqdim edən müəllifin əməyi, həqiqətən, təqdirəlayiqdir.

İ.Əliyevanın oxucuların diqqətinə təqdim etdiyi kitab Bəşir bəy Aşurbəyov haqqında tarixi oçerk olmaqla yanaşı, həm də vətənpərvərlik salnaməsidir: 1920-1930-cu illərdə görkəmli azərbaycanlı ziyalıların verdikləri milli mücadilə, işğal dövrünün və sovet terrorunun ağır nəticələri, pərən-pərən olan ailələr və dağılan talelərlə bağlıdır... Bu kitabda sadəcə bir azərbaycanlının həyatı deyil, bütov bir ölkənin və millətin tarixi, çəkdiyi əzab-əziyyəti, XX əsrin qanlı-qadalı illəri qələmə alınmışdır. Ən əsası, müəllif oxucusunu özü ilə bərabər zaman səyahətinə götürməyi bacarmışdır. Müxtəlif mənbələrdən əldə edilmiş faktlarla zəngin olan yeni nəşr xalqımızın keçmişi, ayrı-ayrı tarixi şəxsiyyətlərimizin həyatı və mühiti ilə maraqlanan hər kəs üçün faydalı mənbədir.

Əminik ki, "Bəşir bəy Aşurbəyov və zəmanəsi" adlı tarixi oçerk böyük oxucu sevgisi ilə qarşılanacaq.

***Sani HACIYEV,***
***tarix üzrə elmlər doktoru,***
***professor***

◆Dünya gündəmi

# Xəstəliklərin adları ayrı-seçkilik salır

## ÜST yeni ştamların adlarında coğrafi əlaqələrdən imtina etməyə çağırır

*Əvvəli 1-ci səh.*

ÜST ötən ayın axırlarında ilk dəfə aşkar edilən koronavirusun yeni B.1.1.529 variantına "omikron" adını verdi, lakin artıq gec idi. SARS-CoV-2-nin bu mutasiyası ilk dəfə Botsvanada və Cənubi Afrika Respublikasında təsdiq olunduğundan, media dərhal onu "Cənubi Afrika" ştamı adlandırdı. Bir sıra ekspertlər Afrika qitəsi, ümumilikdə qaradərililərlə assosiasiya olunan bu adı yersiz, ayrı-seçkilik və irqçiliklə bağlı hesab edirlər. Məhz bu səbəbdən 28 noyabr 2021-ci il tarixli "Die Rheinpfalz am Sonntag" qəzetinin "Afrikadan olan virus bizdə" başlığı Almaniyada sosial şəbəkələrdə tənqidlərə səbəb oldu və nəticədə nəşr ictimaiyyətdən üzr istədi. Bu, hansısa xəstəliyin ilk dəfə aşkar edildiyi və ya xüsusilə geniş yayıldığı regionla əlaqəsi barədə ictimai şüurda kök salan ilk hadisə deyil.

### Koronavirus "Çin qripi" deyil

"İspanka" adlandırılmış, Birinci Dünya müharibəsi zamanı milyonlarla insanın ölümünə səbəb olan təhlükəli qrip güman ki, ABŞ-da peyda olub. Lakin bir çoxları bu infeksiyanı ilk dəfə aşkar etdikləri ölkə - İspaniya ilə assosiasiya ediblər. Bunu Parisin CY Cergy Universitetinin əməkdaşı, adların xəstəliklərə verilməsi prinsiplərini tədqiq edən alim Jerom Viala-Qodefroy deyir.

Ekspert, ABŞ-ın keçmiş prezidenti Donald Trampın ölkədə yeni yoluxmaların sayının sürətlə artdığı bir dövrdə COVID-19 haqqında danışarkən "Çin virusu" ifadəsini aktiv istifadə etdiyini də xatırlayır. 2020-ci ildə Tramp və Respublikaşılar Partiyasının digər üzvləri koronavirusu "Çin qripi" kimi damğalamağa davam etdilər və Uhandakı laboratoriyada süni şəkildə yaradıldığına dair nəzəriyyəni yaydılar ki, bu da Asiya kökənli amerikalılara qarşı ayrı-seçkiliyin artmasına gətirib çıxardı.

Bundan başqa, Tramp koronavirus pandemiyası haqqında danışarkən hərbçilər kimi "gözəgörünməz düşmən" metaforlarından tez-tez istifadə edirdi. Viala-Qodefroyun fikrincə, beləliklə, o, özünə xaricdən hərbi müdaxilə ilə mübarizə aparan lider obrazını yaratmağa çalışırdı.

### Asiyalı görünüşünə görə ayrı-seçkilik

Görünüşü ilə çinlilərə bənzəyən Hindistanın şimal bölgələrinin sakinləri də COVID-19 pandemiyası zamanı ayrı-seçkiliyə məruz qalıblar. Onlar hətta yoluxma simptomları olmadan belə karantinə getməyə məcbur ediliblər.

Ayrı-seçkiliyin digər nümunəsi ABŞ-da ifrat sağçı siyasətçilərin "Ebola" əvəzinə sabiq afroamerikalı Prezident Barak Obamanın adına işarə ilə "Obola" sözündən istifadə etməsidir.

ÜST hesab edir ki, Yaxın Şərq respirator sindromunun koronavirusu və Laym (MERS yaxud BVPS-KoB) kimi xəstəliklərin adları da uğursuzdur. Sonuncu halda bu, Amerikanın Konnektikut ştatında yerləşən, infeksiyanın ilk aşkar edildiyi şəhərlə bağlı mənfi assosiasiyalar yaradır.

### Yeni xəstəliklərin adları ilə bağlı ÜST-ün tövsiyələri

Hələ 2015-ci ildə ÜST yeni xəstəliklər üçün adların seçilməsi üzrə təlimat buraxmışdı və orada açıq şəkildə bildirmişdir ki, istənilən mədəni, sosial, regional, peşəkar və etnik qrupa qarşı incikliyin qarşısını almaq lazımdır.

Buna baxmayaraq, 2020-ci ilin mart ayında BMT-nin irqçilik üzrə xüsusi məruzəçisi E. Tenday Açiume İrqi ayrı-seçkiliyin aradan qaldırılması uğrunda Beynəlxalq Mübarizə Gününə həsr olunmuş çıxışında qeyd etmişdi: "Mən dövlətlərin rəsmilərinin, o cümlədən ABŞ Prezidentinin COVID-19 koronavirusunun digər adlarını işlətməsini təəssüflə müşahidə edirəm. Bəzi rəsmilər bu virusun beynəlxalq səviyyədə tanınmış adını istifadə etmək əvəzinə, onun coğrafiyasına istinad edirlər və bir qayda olaraq, Çində aşkarlandığını bildirirlər. Bu virusla bağlı qəsdən coğrafi adın istifadəsi irqçilik və ksenofobiyaya əsaslanır və onları dəstəkləyir".

Ekspert vurğulayıb ki, dövlətlər tərəfindən bu məsuliyyətsiz və ayrı-seçkilik ritorikası ikinci dərəcəli məsələ deyil, "və" insanların həyatı, dolanışığı üçün ciddi fəsadlara səbəb ola bilər. COVID-19-la bağlı internetdə irqçilik və ksenofobiyanın təzahürləri arasında təhqirlər, nifrətin qızışdırılması, ayrı-seçkilik stereotiplərinin yayılması, konspiroloji nəzəriyyələr yer alır. Təsadüfi deyil ki, COVID-19-u müəyyən etnik qruplarla əlaqələndirməyə çalışan liderlər, öz siyasi proqramlarının əsasını irqçilik və ksenofobiya ritorikası üzərində quran millətçilər və populistlərdir.

### Yeni adlar diskriminasiyanın dərəcəsini azaldacaq

Dünyada koronavirusun yeni mutasiyalarını aşkarlayan kimi, KİV-də, bir qayda olaraq, bu variantların coğrafi bağlanmaya malik adları peyda olur, məsələn, "Hindistan" və ya "Britaniya" ştamı.

Bu fonda 2021-ci ilin may ayında, SARS-CoV-2 koronavirusu peyda olduqdan təxminən 18 ay sonra, ÜST bu infeksiya mutasiyalarının təsnifatı üçün yunan əlifbasının hərflərindən istifadə etməyə başladı. Beləliklə, "Hindistan" seçimi "delta" oldu. Təşkilatın eksperti Mariya Van Kerkhovenin fikrincə, koronavirusun variantlarına adların verilməsi prinsipinin dəyişməsi bu baxımdan müəyyən ölkələrin məruz qaldığı diskriminasiyanın dərəcəsinin azaldılmasına kömək etməlidir.

### Səfər məhdudiyyətləri

"Omikron" mutasiyasına gəlincə, son məlumatlara görə, onun heç də CAR-da peyda oldmadığı istisna edilmir. "Assoşieyted Press" agentliyinin verdiyi xəbərə görə, Niderlandın səhiyyə orqanları hələ noyabrın 19-da ölkədə koronavirus infeksiyasının bu variantının nümunələrini qeydə alıblar. Yəni bu, CAR-da ilk yoluxmalar qeydə alındığından 5 gün əvvəl baş verib.

Buna baxmayaraq, bir çox dövlətlər, xüsusilə də Cənubi Afrika regionundan səyahətçilər üçün, giriş qaydaları ilə bağlı məhdudiyyətlərin tətbiqi davam etdirilir. Viala-Qodefroyun fikrincə, bu, dünya ölkələrinin öz ərazilərində koronavirusun yeni variantlarının aşkar edilməsi faktını bildirməməsinə səbəb ola bilər.

"Biz infeksion xəstəliklərin rəsmi adlarından istifadə etməliyik", - deyə "First Responder" irqçiliyə qarşı mübarizə platforması "Tvitter"də mikrobloqunda çağırış edir: "Ebola" və "MERS" epidemiyaları irqçilik və ayrı-seçkiliyin güclənməsinə gətirib çıxardıqdan sonra ÜST onların mənşəyinin coğrafi yerlərinin səsləndirilməsini istisna etmək üçün xəstəlik adlarını təyin etmək mexanizmini dəyişdi. Nifrəti dayandırmaq üçün xəstəliyi "COVID-19" adlandırın".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Məktublar: problemlər, rəylər, təkliflər...




## İşıqfor karımıza gəldi

**10 ilə yaxındr ki, Abşeron rayonuna köçmüşük. Saray qəsəbəsində yer alıb ev tikmişik. Bura həm yoldaşımın iş yerinə yaxındır, həm də həyət evidir, hər cür rahatlığı var. Binəqədidə yaşayanda hər gün bir problemlə rastlaşırdıq. Bir gün su gəlmirdi, ertəsi gün işıqlar keçirdi, üçüncü gün qaz olmurdu.**



Şükürlər olsun ki, buraların belə problemi yoxdur. Sağ olsun əlaqədar təşkilatlar vaxtaşırı reydlər edir, kommunal problemlərlə maraqlanır, olanlar operativ aradan qaldırılır.

Yaşadığımız Sevil Qazıyeva küçəsi birbaşa Sumqayıt istiqamətindəki əsas yola - Heydər Əliyev küçəsinə çıxır. Hər tərəf yaşıllıqdır. Çatışmayan küçəni təhlükəsiz keçmək üçün zolağın olmaması idi. Qonşuların yerli icra orqanına şikayətindən sonra bu problem də həll edildi.

Lakin sürücü-piyada təhlükəsi qalmaqda idi. Demək olar ki, hər gün piyadalar təhlükə ilə üzləşirdi. Bəzən sürücü məsuliyyətsizliyi, ya da piyada soyuqqanlığı hadisə ilə nəticələnirdi. Axşamlar belə hadisələr tez-tez olurdu. Yolun digər hissəsinə sağ-salamat keçəndə Allaha şükür edirdik.

Qərara gəldik ki, həmin yola işıqforun qoyulması ilə bağlı əlaqədar təşkilatlara müraciət edək. Məktub hazırlayıb göndərdik. Qısa zamanda nümayəndələr gələrək şikayətlə yerindəcə tanış oldular. Allah köməkləri olsun. Heydər Əliyev küçəsinin ara yolları ilə çox kəsişdiyi yerdə işıqfor quraşdırıldı, piyadalar üçün zolaqlar salındı. İnanın ki, o zamandan bəri heç bir hadisə baş verməyib.

***Pərvanə AĞAYEVA,***
***Abşeron rayonunun Saray qəsəbə sakini***

## Səyyar mədəni tədbirlər ənənəsini bərpa etmək lazımdır

**Bir vaxtlar Azərbaycanda səyyar mədəniyyət və incəsənət tədbirləri keçirilərdi. Mədəniyyət Nazirliyinin xətti ilə keçirilən həmin tədbirlər zamanı tanınmış müğənnilər, teatr və kino aktyorları qrup halında nəinki şəhər və rayon mərkəzlərində, hətta ən ucqar kəndlərdə, tarlalarda konsert və tamaşalar göstərərdilər.**

Məqsəd o idi ki, paytaxtda nümayiş olunan tamaşalara rayon camaatı da baxa bilsin. İlin bütün fəsillərində açıq havada və kənd klublarında keçirilən səyyar tamaşalardan və konsertlərdən insanlar xüsusi zövq alırdılar. Yaşlı adamlar maraqla söyləyirlər ki, indi həyatdan köçmüş korifey sənətkarları səyyar tədbirlərdə yaxından görüblər. Hətta onlarla həmsöhbət olanları, şəkil çəkdirənləri də az olmayıb.

Bu kimi mədəni tədbirlərdən indi yalnız kütləvi informasiya vasitələrindən xəbər tutan kənd ziyalıları hesab edirlər ki, həmin ənənəni bərpa etmək lazımdır. Bu cür canlı tədbirlər həm də gənclərin boş vaxtlarının mənalı keçməsinə səbəb ola bilər.

***Salman HƏSƏNOV,***
***Şəmkir rayonu***

## Daha hər xəstəlik üçün rayon mərkəzinə getmirik

**Son illər ölkəmizdə əhalinin sağlamlığının qorunması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. O cümlədən bölgələrdə müasir xəstəxana binaları inşa edilərək istifadəyə verilir ki, bu da əhalinin razılığı ilə qarşılanır.**






Bu yaxınlarda yaşadığım Gədəbəy rayonunun Şəkərbəy kəndində istifadəyə verilən həkim məntəqəsi də respublikamızda səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən biridir.

Qeyd edim ki, kəndimiz rayon mərkəzindən xeyli aralıda yerləşir. Burada fəaliyyət göstərən həkim məntəqəsi demək olar ki, istifadəyə yararsız hala düşdüyündən kənd camaatı səhiyyə xidməti almaq üçün rayon mərkəzinə getməli olurdu ki, bu da həm narahatlıq, həm də vaxt itkisi demək idi. Kənddə yaşayan sakinlər mövcud vəziyyətlə əlaqədar rayon rəhbərliyinə müraciət edərək tədbir görülməsini xahiş etdilər. Nəhayət, həkim məntəqəsinin təmirinə başlanıldı. İndi kəndimizdə hər cür tibbi avadanlıqla təchiz edilmiş müasir həkim məntəqəsi və təcrübəli tibb işçiləri var.

***Salman NƏSİROV,***
***Gədəbəy rayonunun Şəkərbəy kənd sakini***

## Qənimətlər Parkını görmək istəyənlərin sayı çox olsa da...




**Azərbaycan 44 günlük Vətən müharibəsində Zəfər qazanaraq 30 il düşmən işğalında olan torpaqlarını azad etdi. "Məğlub xalq" sindromunu qıraraq indi qalib xalq qürurunu yaşayırıq. Bunu bizə bəxş edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan Ordusuna minnətdarıq. Xalqımız bu gün torpaq, Vətən uğrunda canından keçən, bizə bu Zəfərin qürurunu yaşadan şəhidlərimizi ehtiramla yad edir, qazilərimizə şəfa diləyir.**

Ötən il sentyabrın 27-də döyüşlər başlayan andan gənclərimiz çağırış vərəqəsini gözləmədən döyüşə getmək üçün hərbi səfərbərlik və çağırış şöbələrinin qarşısında izdiham yaratdı. Hamı cəbhəyə getmək istəyirdi. Gənclərimizlə yanaşı, Birinci Qarabağ savaşının veteranları və qazilərimiz də döyüşmək üçün müraciət edirdilər. Düşmən tərəfində isə mənzərə başqa cür idi. Polis erməni gənclərinin küçədə qollarını buraraq zorla döyüşə göndərirdi.

Bunu ona görə yazırıq ki, hər zaman gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasına diqqət yetirməliyik. Xüsusilə ailələr bu işdə böyük məsuliyyət daşıyır. Çünki uşaq üçün vətən evindən başlayır.

Mən də bir baba kimi nəvələrimin vətənpərvər ruhda böyüməsinə səy göstərirəm. Bu yaxınlarda onları Qənimətlər Parkına apardım. Təşəbbüs həm də onlar tərəfindən gəlmişdi. Qeyd edim ki, parka səyahət nəvələrimdə unudulmaz təəssürat yaratdı. Bunu onların gözündən oxuyurdum.

Amma parkı ziyarət edənlər bəzi problemlərlə də üzləşirlər. Məsələn, parka bilet almaq və alandan sonra içəri keçmək üçün uzun növbədə durmaq lazım gəlir. Parka gələnlərin əksəriyyəti isə baba-nənə və nəvələrdir. Təbii ki, həm yaşlı, həm də uşaqlar üçün uzun növbədə dayanmaq asan olmur.

Parkın bir girişi, iki kassası var. Problem də bu üzdən ortaya çıxır. Yaxşı olardı ki, parkın giriş və çıxışları, eləcə də bilet kassalarının sayı artırılsın. Onda ziyarətçilər də bu əziyyətdən qurtularlar.

***Rafiq ƏLİYEV,***
***Bakı şəhər sakini, mühəndis***

## AZƏRBAYCAN -a cavab verirlər

### "Beşbarmaq" piri ərazisində səliqə-sahman yaradılmışdır"




**"Azərbaycan" qəzetinin 30 sentyabr 2021-ci il tarixli sayında dərc edilmiş "Beşbarmaq" pirinin qarşısındakı ərazidə antisanitariyadır" sərlövhəli oxucu məktubunda qaldırılmış problemlə əlaqədar aşağıdakıları bildiririk:**




Məktubda qeyd olunan ərazi Zarat bələdiyyəsinin ərazisində yerləşdiyi üçün bələdiyyə tərəfindən həmin yerə baxış keçirilmiş və müvafiq tədbirlər görülmüşdür. Ərazidə mövcud olan antisanitar vəziyyət qısa müddət ərzində aradan qaldırılmış və səliqə-sahman işləri aparılmışdır. Həmin ərazi bundan sonra da daim nəzarətdə saxlanılaraq təkrar antisanitariya vəziyyətinin yaranması hallarının qarşısı alınacaqdır.

***Təhminə BƏXTİYAROVA,***
***Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri***

### "Zığ bələdiyyəsinə icrası məcburi olan müddətli göstəriş verilmişdir"

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinə qəzetinizin 12.09.2021-ci il tarixli sayında dərc edilmiş "Duzlu göl, yaxud infeksiya mənbəyi" sərlövhəli məqalədə qaldırılmış problemlə bağlı daxil olmuş məktubunuz Suraxanı Rayon İcra Hakimiyyəti başçısının Zığ İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsinin müavini S.Seyidovun iştirakı ilə əməkdaşlarımız tərəfindən yerində araşdırılmışdır.**

Araşdırma ilə əlaqədar Suraxanı rayonu, Zığ qəsəbəsi ərazisində yerləşən "Duzlu göl" kimi tanınan su hövzəsinin ətraf ərazilərinə keçirilən baxış zamanı yay aylarında əhaliyə mövsümi xidmət göstərən və hazırda fəaliyyəti dayanmış ictimai-iaşə obyektlərində, həmçinin yaxınlıqda yerləşən fərdi yaşayış evlərində formalaşan məişət tullantılarının əraziyə pərakəndə şəkildə atıldığı və məişət tullantılarının müvəqqəti saxlanılması üçün konteynerlərin quraşdırılmadığı müəyyən edilmişdir.

Araşdırma ilə bağlı akt tərtib edilmiş və "Ətraf mühitin mühafizəsi haqqında" qanunun tələblərinin pozuntularının aradan qaldırılması üçün Zığ bələdiyyəsinə icrası məcburi olan müddətli göstəriş verilmiş, tullantıların müvəqqəti saxlanması üçün konteynerlərin quraşdırılması məqsədilə zəruri tədbirlərin görülməsi ilə əlaqədar Zığ qəsəbə İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyinə məktub ünvanlanmışdır.

***Vaqif CAVADOV,***
***11 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi***

## Nizamsızlıq tıxaca səbəb olur

**Mən sürücülük fəaliyyəti ilə məşğulam. Bəri başdan deyim ki, yaşadığım Sumqayıt şəhərinin yolları geniş və təmirlidir. Hətta ictimai nəqliyyatın hərəkətini nizamlamaq üçün bir çox küçələrdə ayrıca hərəkət zolağı da ayrılıb. Bunların nəticəsidir ki, şəhərimizdə yol qəzaları çox az halda baş verir.**



Bununla belə problemlər də yox deyil. Onlardan biri taksilərin və şəxsi avtomobillərin ictimai nəqliyyatın dayanacaqlarını zəbt etməsidir. Belə halda marşrut avtobusları yolun hərəkət zolağında dayanmağa məcbur olurlar ki, bu da tıxacla nəticələnir. Digər problem 3-4 avtobusun dayanacağa eyni vaxtda yaxınlaşmasıdır. Təbii ki, bu zaman dayanacaq üçün ayrılmış ərazidə sıxlıq yarandığından digər avtomobillərin hərəkəti məhdudlaşır.

Demək olar ki, hər gün əlaqədar təşkilatın nümayəndələri ərazilərdə səliqə-sahman yaradır. Lakin onlar çıxıb gedən kimi yenə də ara qarışır. Ona görə də bu cür halların köklü həlli üçün daha təsirli tədbirlər görülməlidir.

***Ramiz İBRAHİMOV,***
***Sumqayıt***

## "Şəmkir səbəti" bazarı infeksiya mənbəyidir

**Şəmkirdəki "Şəmkir səbəti" bazarında nə desən tapmaq mümkündür. Burada yerli göy-göyərtidən tutmuş istənilən ölkədə yetişən meyvə-tərəvəzə kimi hər şey satılır. Amma satış zamanı nə gigiyena, nə də sanitar qaydalara əməl edilir. Bazarda demək olar ki, sanitar-həkim nəzarəti yoxdur. Bütün dünyada olduğu kimi, ölkəmizdə də pandemiya ilə əlaqədar karantin qaydaları tətbiq olunur. Lakin bu qaydalara əməl etmək bazarda tamamilə unudulub. Hətta satıcılar tibbi maskadan belə istifadə etmirlər.**



Halbuki bazar təzə açılanda hamının zövqünü oxşayırdı. Təəssüf ki, zaman keçdikcə baxımsızlıq ucbatından həmin səliqə-sahmandan əsər-əlamət qalmadı. İndi qida məhsulları torpağın üstündə, açıq havada satılır ki, bu da xəstəlik mənbəyi yaradır. Bundan başqa, bazarın içərisində həm minik, həm də yük maşınları hərəkət etdiyindən hər tərəf yararsız vəziyyətə düşüb. Bizi təəccübləndirən odur ki, Qida Təhlükəsizliyi Agentliyinin yerli nümayəndələri bütün bunlara göz yumurlar.

Hörmətli redaksiya! Mən dəfələrlə bazar rəhbərliyinə etirazımı bildirmişəm. Lakin heç bir tədbir görülməyib. Rayon sakinləri adından xahiş edirəm ki, "Şəmkir səbəti" bazarında səliqə-sahman yaradılması üçün bizə kömək göstərəsiniz.

***Oruc ORUCOV,***
***Şəmkir şəhər sakini***

## Dərdimiz yolsuzluqdur

**Hörmətli redaksiya!**

Mən sizə Neftçala rayonunun "Xol zonası" adlanan 12 kəndinin əhalisi adından müraciət edirəm.



Ölkəmizin hər bölgəsində aparılan abadlıq-quruculuq işlərini görəndə, haqqında eşidəndə ürəyimiz qürur hissi ilə dolur. Sevinirik ki, ölkəmizin aybaay, ilbəil siması dəyişir. İndi kəndlərdə, o cümlədən "Xol zonası"nda yaşamaq əvvəlki kimi çətin deyil. Şükür Allaha, günboyu işığımız, qazımız var. Olmayan bircə yolumuzdur.

Adbaad saymağa ehtiyac bilmədiyim bizim bölgənin kəndlərinin ümumilikdə təxminən 15 minə yaxın əhalisi var. Əkinçiliklə, heyvandarlıqla məşğuluq. Müxtəlif səbəblərdən yolumuz tez-tez rayon mərkəzinə, qonşu Salyan və Biləsuvara düşür. Amma yola çıxmağımıza peşmanıq. Bakı-Astara yolundan təxminən 15-20 kilometr məsafədə yerləşən bizim kəndlərdən magistrala çıxanacan yediyimiz burnumuzdan gəlir. Yolumuzun bircə adı qalıb. Nə qədər yuxarılara yazmaq, müraciət etmək olar?! Xeyri, nəticəsi yoxdur, "Xol zonası" sanki unudulub. Halbuki bizim kəndlərin Neftçalanın kənd təsərrüfatında payı çoxdur. Belə çıxır ki, məhsul istehsalına gələndə yada düşürük, yolun təmirinə gələndə yox?!

İndi ümidimiz rəsmi dövlət qəzetinədir. Güman edirik ki, bu məktubun dərci köməyimizə çatar.

***Murad AĞAYEV,***
***Neftçala rayonunun Xolqarabucaq kənd sakini***

## Deyəsən bu qış da mənzilimiz qızmayacaq

**Deyilənə görə, qarşıdan gələn qış mövsümündə havalar olduqca soyuq keçəcək. Odur ki, insanlar bu mövsümə indidən hazırlıq işlərinə başlamışlar. Kimi evində olan istilik sistemini qaydaya salır, kimi odun tədarük edir, kimi də qarlı-şaxtalı havalardan çıxmaq üçün başqa yollar axtarır. Bax, biz həmin insanlardanıq ki, qış mövsümündə evimizi isitmək üçün indidən müxtəlif yollar haqqında düşünürük.**



Tovuzda həyata keçirilən abadlıq və yenidənqurma işləri nəticəsində şəhər öz simasını dəyişmiş, hamını heyran edəcək dərəcədə abadlaşmışdır. Əlbəttə, bütün bunlar hər bir tovuzlu kimi, bizə də qürur verir. Ancaq təəssüflər olsun ki, qış aylarında yaranan bir sıra çətinliklər sakinlərdə bu qürur hissini yox edir.

Biz şəhərdə çoxmənzilli binada yaşayırıq. Demək olar, SSRİ dağılandan qışda canımız qızmır. Çünki bu cür binaların istilik problemi indiyəcən həll olunmayıb. Dəfələrlə "Azəristiliktəchizat" ASC-yə müraciət etsək də, heç nəyə nail ola bilmirik. Hər dəfə qış mövsümü gələndə bizi arxayınlaşdırırlar ki, problem həll ediləcək. Lakin bugünədək vədlərinə əməl etməyiblər.

Hörmətli redaksiya, indi ümidimiz sizədir. Xahiş edirik ki, bu işdə bizə kömək göstərəsiniz.

***Aydın ƏLƏKBƏROV,***
***Tovuz şəhər sakini***

**Dünya olduğu kimi**

# Dünyanın ilk meyvəsi

## Meyvələrin şahı

**Cənnət meyvəsi sayılan nar qədim dövrlərdə Şərqdə meyvələrin şahı sayılardı. Dünyanın ən qədim və ən sağlam meyvələrindən biri olan narın eramızdan əvvəl 3500-cü ildən becərildiyi təxmin edilir. Daha çox İran, Qafqaz və Şimali Hindistanda Himalay dağlarına xas bitki kimi xarakterizə edilən nar bütün Aralıq dənizi ölkələrində bitirdi. Ehtimal edilir ki, nar İranda yaransa da, sonradan Aralıq dənizi boyunca sürətlə yayılıb.**



O, Ərəbistana, Əfqanıstana, Hindistana, Çinə qədər yayılıb və burada həm də "Çin alması" adı ilə tanınıb. Narın eramızdan əvvəl (e.ə) 2500-cü illərdə Suriya və Kiprdə, e.ə. 1500-1200-cü illərdə isə Yunanıstanda, İtaliyada yayıldığı güman edilir.

Narın ən qiymətli sortunun eramızdan əvvəl Qədim Yunanıstanın Karfagen vilayətində becərildiyi deyilir. Narın mövcudluğu tarixin ən qədim dövrlərinə aid arxeoloji tapıntılarda da öz təsdiqini tapır. Məsələn, qədim Misir fironu Tutanhamonun məzarından tapılmış narşəkilli gümüş qab buna sübutdur. Qədim dövrlərdə dini mərasimlərdə, evlərdə və dəfnlərdə metal və fil sümüyündən nar şəklində hazırlanmış qablardan istifadə edilməsi də xüsusi diqqət çəkir.

Qədim misirlilər narın dünyanın ilk meyvəsi olduğuna inanırdılar. Hətta Adəmlə Həvvanın cənnətdən qovulmasına səbəb olan meyvənin alma deyil, nar olduğunu iddia edənlər var. Nar təsvirlərinə Misir piramidalarında, qədim Bizans və qədim yunanların ornamentlərində də rast gəlinib. Qədim Misirdə savaşdan əvvəl döyüşçülər nar yeməli idilər. Bu meyvə ilə onlar daha güclü və yenilməz olacaqlarına inanırdılar. Misirlilər narı müqəddəs saymış, onu həyat ağacı adlandırmış və yeni həyat yarada biləcəyinə inandıqları üçün, demək olar ki, hər kəsi bu meyvə ilə basdırmışlar. Misir fironu Hatşepsutun məzarında (e.ə. 1470) çoxlu sayda nar tapılmışdı.

Antik dövrün məşhur tarixçisi Herodot qeyd edir ki, Yunan-Fars müharibələri zamanı fars əsgərləri uclarında gümüş və qızıl nar olan nizələr gəzdirirdilər. Qədim dünyada gündəlik həyat üçün böyük əhəmiyyət kəsb edən nar müxtəlif əsərlərdə də ilhamverici simvol kimi qeyd edilib. Anadolunun ən qədim sivilizasiyalarından olan hetlər əkinçilik tanrısını buğda və narla birgə təsvir edirdilər. Het dilində "nurmu" və ya "nurma" sözləri nar mənasını verir. Het tanrıları qadınlıq və gözəllik simvolu kimi tez-tez əllərində güzgü tuturdular. Narları başqa tanrıların əlində də görmək olardı. Türkiyədə eramızdan əvvəl XVI əsrə aid olan Uluburun gəmisində çoxlu sayda narın tapılması onun o dövrdə Aralıq dənizində ticarət məqsədilə istifadə edildiyini göstərir.

Nar tarix boyu insanların ən sevimli meyvəsi olub. Rəvayətə görə, narın bitdiyi ağacı ilk dəfə sevgi ilahəsi Afrodita əkib. Buna görə nar suyuna çox vaxt "sevgi eleksiri" də deyirlər.

Həm mifologiyada, həm də səmavi dinlərdə yer alan nar bir çox cəmiyyətlərdə müqəddəs sayılıb. "Quran"da narın adı iki dəfə çəkilir. Onun adı bir dəfə cənnət meyvəsi kimi, ikinci dəfə isə nifrət və qəzəbə qarşı dərman kimi istifadə üçün tövsiyə edilir. Lakin "Bibliya"da nara münasibət fərqlidir. Belə bir nəzəriyyə var ki, ilan Həvvanı alma ilə yox, narla sınayıb.

Nar dini bəzək işlərində də tez-tez istifadə olunan motivlərdən olub. Ayinlərdə, xalq ədəbiyyatında, nağıl və dastanlarda tez-tez adı çəkilən nar müxtəlif ideologiyalarda əfsanəvi meyvə kimi təsvir edilib.

Azərbaycanda da narın qədim tarixi var. Nar Azərbaycanın, demək olar ki, bütün regionlarında yetişdirilib. Narın şəfa mənbəyi, məhsuldarlıq və həyat nişanəsi sayılması, nəsil-soy artıran meyvə kimi müqəddəs hesab olunması və ona sitayiş edilməsi bütün türk xalqlarının, o cümlədən Azərbaycan əhalisinin həyat və məişətində, folklorunda, mifik görüşlərində də öz əksini tapıb. Əsatir və əfsanələrimizdə, eləcə də nağıllarımızda, dastanlarımızda narın dirilik, artım və bolluq rəmzi olmasına dair istənilən qədər nümunələr var. Müxtəlif dövrlərdə vətənimizdə olmuş tacirlər, səyyahlar və diplomatlar öz xatirələrində və əsərlərində Azərbaycanda sənətkarlığın inkişafı haqqında çoxlu maraqlı faktlar qeyd ediblər. İngilis səyyahı tacir Antoni Jenkinson (XVI əsr) qeyd edirdi ki, Azərbaycan naxışlarının ən çox sevilən motivləri qızılgül, nərgiz, qərənfil, lalə, zanbaq, nar, heyva, alça çiçəkləri, eləcə də müxtəlif formalı sünbül və yarpaqlardır.

## Ən çox nar yeyənlər



Əfqanıstan dünyada narın ən çox istehlak edildiyi ölkədir. Əfqanıstan təkcə ənənəvi becərmə üsullarına görə deyil, həm də yetişdirilən torpaq növlərinin keyfiyyətinə görə "nar meyvələri ölkəsi" kimi tanınır.

Nar istehsalı Əfqanıstanın kənd təsərrüfatına mühüm töhfə verir. Nar Əfqanıstanın əyalətlərində əsas meyvə məhsuludur və minlərlə insanın dolanışıq mənbəyidir. Bəzi nüfuzlu botaniklər Əfqanıstanın dünya nar istehsalının beşiyi olduğuna inanırlar. Əfqanıstanda dünyanın hər yerindən daha çox nar ağacı var. Populyarlığına və narlarının ixracına yaranan tələbata görə hər il Əfqanıstanda Ümumdünya Nar Sərgisi keçirilir.

## "Tumsuz" narlar

**"Tumsuz" nar sortu seleksiyaçı alimlərin ən böyük uğurlarından biridir. Mərkəzi Nəbatat bağında 35 ildən çoxdur ki, "tumsuz" nar sortu becərilir. Narın Mərkəzi Nəbatat bağına gətirilməsi tam təsadüfən olub. Göyçaydan və Özbəkistandan alınmış nar tingləri bağda əkilib və bütün aqrotexniki tədbirlərə əməl edilməklə becərilib. Yetişmiş meyvələr yığılarkən onların arasından bir nar kolunun meyvəsinin "tumsuz" olduğu aşkarlanıb.**



Sonrakı tədqiqatlar nəticəsində məlum olub ki, ilk dəfə "tumsuz" nar seleksiya yolu ilə Əfqanıstanda "Əfqanıstan 1715" adı altında yetişdirilib və buradan Özbəkistana yayılıb. Respublikamıza narın bu sortu ilk dəfə professor İdris Axundzadənin rəhbərliyi altında ABŞ-dan gətirildiyi bildirilir. Keçən əsrin ortalarına yaxın Özbəkistanın özündə də "tumsuz" narın alınması istiqamətində tədqiqatlar aparılıb. "Tumsuz" nar sortu adi nar sortlarında olan bütün keyfiyyətləri özündə birləşdirməklə bərabər, bir sıra üstün cəhətlərə də malikdir. "Tumsuz" narın digər nar sortlarına nisbətən üstün cəhətləri məhz yüksək məhsuldar olması, qışın sərt şaxtalarına (-10-15°C-dək) davamlılığı və keyfiyyətli şirə verməsinə malik olmasıdır. "Tumsuz" nar bar verən vaxtı budaqlar çox kövrək olduğundan onlarda sınma-qırılma təhlükəsi əmələ gətirir. Başqa narlara nisbətən bu sort xəstəlik və zərərvericilərə qarşı çox dözümlü olur. "Tumsuz"ın toxumları təəccüblü dərəcədə yumşaqdır və yeyilə bilər.



## Qara nar

Narın əksər növləri çəhrayıdan qırmızıya qədər müxtəlif çalarlarda olsa da, bir neçə növü bənövşəyi rəngdədir. Bəzi narlar isə tünd rəngdədirlər ki, onlar qara sortlar adlanır. İranda qara meyvəli sortlar ən bahalı nar hesab olunur.

Belə narlar oxşar dadı olan digər sortlarla müqayisədə daha yüksək qiymətə satılır. İranlılar şirin dadına və müalicəvi xüsusiyyətlərinə görə qara narlara daha çox üstünlük verirlər.

## Azərbaycan narın yetişdirilməsi mərkəzlərindən biridir

**Aparılan tədqiqatlar Azərbaycanın dünyada nar bitkisinin ilkin əmələgəlmə mərkəzlərindən biri olduğunu təsdiqləyib. AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun apardığı tədqiqatlara görə, hazırda 200-ə yaxın Azərbaycan mənşəli nar sortunun olması məlumdur.**



Nar sortlarının bu qədər müxtəlifliyi onun uzun illər ərzində yarandığını və Azərbaycanda nar bitkisinin min illər ərzində yetişdiyini göstərir. Azərbaycanda narın yabanı formalarının yayıldığı ərazilər də çoxdur. Azərbaycan dünyada, demək olar ki, bütün nar növlərinin yetişdiyi yeganə ölkə sayılır. Yerli bağlardan ildə 40000 ton nar yığılır. Ölkəmizin subtropik zonasında yerləşən Şirvan düzü ən yaxşı nar sortlarının yetişdirilməsi üçün ideal məkandır.

Göyçay rayonunda hər il ənənəvi nar festivalı keçirilir. Festivalda rayonun 32 kəndində narçılıqla məşğul olan insanların yetişdirdiyi müxtəlif növ narlar, onlardan hazırlanan məhsullar təqdim olunur, nar yemək və nar sıxmaq yarışları keçirilir.

Azərbaycanın təqdim etdiyi "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" adlı nominasiya sənədi ötən il UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilib.

## Nara görə məşhur olan ölkələr

**Dünya üzrə nar istehsalı təqribən 1 milyon tondur. Dünyanın ən böyük nar istehsalçısı Hindistan, ondan sonra İrandır.**

Ən çox nar istehsal edən ölkələrin sırasında Türkiyə, Azərbaycan, İspaniya və Əfqanıstanın da adı var. Ən çox nar ixrac edən ölkələr İran, Türkiyə, İspaniya, Hindistan və Tunisdir. Ən çox nar idxal edən ölkələr Rusiya, Amerika, Almaniya, Hollandiya və Ukraynadır.

## Dünyanın ən böyük narı



**Ən yaxşı nar sortları meyvəsinin kütləsi 800-1000 qrama, orta çəkisi isə 200-400 qrama çatır. Lakin dünyada çəkisi daha ağır olan narlar da olub.**

Dünyanın ən böyük narının 27 noyabr 2017-ci ildə Çində yetişdirildiyi təsdiqlənib. Bu narın çəkisi 2,60 kq, çevrəsi 59 sm olub. Bu nar öz böyüklüyünə görə Ginnesin Rekordlar Kitabına daxil edilib.

*İlhamə İSABALAYEVA, "Azərbaycan"*



**Sağlıq olsun**

# Taclının şəfası

**Dini kitablarda ən çox adıkeçən meyvələrdən olduğu üçün "Cənnət meyvəsi" də adlandırılan narın müalicəvi xassəsi hələ eramızdan çox-çox əvvəl assuriyalılara, misirlilərə, yunanlara və romalılara məlum idi.**



Ən qədim tibbi yazılardan biri olan Ebers papirusuna görə misirlilər nardan infeksiyaları müalicə etmək üçün istifadə edirdilər. Eramızdan əvvəl Çin təbibləri nar qabığından qurd dərmanı kimi istifadə ediblər. Növündən və sortundan asılı olaraq, şirin və turş olan nar vitaminlərlə, boyayıcı maddələrlə, makro və mikroelementlərlə zəngindir. Bu faydalı meyvə antioksidant, virus və şiş əleyhinə xüsusiyyətlərə malikdir.

Kalium, kalsium, fosfor, dəmir, natrium kimi minerallarla, həmçinin A, B1, B2, B3, C, E vitaminləri ilə zəngin olan nar tərkibindəki kalium və natrium sayəsində orqanizmin su balansını qoruyur, onda olan kalium bədənə yığılmış artıq mayeni və ödemləri xaric edir, ürək, qan-damar sistemini qüvvətləndirir, əzələ və sümüklərə mineralların rahat daxil olmasına şərait yaradır. Nar yeyən insanların sinir sistemi və sümüklərində mineral çatışmazlığı ilə bağlı problem olmur.

Bu meyvənin suyunun tərkibindəki antioksidantlar sərbəst radikalları aradan qaldırmağa, hüceyrələri zədələnmədən qorumağa və iltihabı azaltmağa kömək edir. C vitamini mənbəyi olan narın bir stəkan suyu gündəlik C vitamini ehtiyacının 40 faizini ödəyir.

Müxtəlif meyvə şirələri üzərində aparılan araşdırmalar göstərib ki, nar şirəsi prostat xərçənginə ən təsirli içkidir. O, alzheimer xəstəliyinin inkişafını dayandırır, yaddaşı qoruyur. Ümumiyyətlə, elmi araşdırmalar nar dənələrində və şirəsində olan polifenolların yaddaş və idrak funksiyaları üçün faydalarını sübut edib. Xüsusilə əməliyyatdan sonra narın yaddaşın güclü olmasına faydaları var. Belə ki, yaddaş şikayəti olan yaşlı insanlara dörd həftə ərzində 1 stəkan nar suyu içirdilib. Nəticələr göstərib ki, onların şifahi və vizual yaddaşında əhəmiyyətli dərəcədə irəliləyiş var.

Nar həm də həzm xəstəliklərinin də qarşısını alır. Nar şirəsi bağırsaqda iltihabı azaldır. Crohn xəstəliyi, xoralı kolit və digər iltihablı bağırsaq xəstəlikləri olan insanlar üçün nar faydalı olur.

Tərkibindəki yüksək antioksidant konsentrasiyasına görə nar bədəndə iltihabı azaltmağa və oksidləşdirici stres və zərərin qarşısını almağa kömək edir.

## Şəkər xəstəliyinə çarə

Bu şəfalı meyvə ürəyi qoruyur, damarları bərpa edir. Araşdırmalar narın qan dövranını yaxşılaşdırdığını və aterosklerozun qarşısını aldığını da ortaya çıxarıb.

Gündəlik nar suyu içmək sistolik qan təzyiqini aşağı salmağa kömək edir. Tərkibindəki antioksidantlar sayəsində sərbəst radikallarla mübarizə aparır, xolesterini aşağı salır və qan laxtalanmasının qarşısını alır. Bütün bunlar nəticədə qanın sərbəst axmasına kömək edir və bununla da bədəndə oksigen səviyyəsini artırır.

Yaxın Şərqdə və Hindistanda nardan ənənəvi tibbdə şəkər xəstəliyinə çarə kimi istifadə olunur. Narın şəkər xəstəliyinə təsiri haqqında elmi məlumat az olsa da, insulin müqavimətini azaltmağa və qan şəkərini aşağı salmağa kömək edir.

## Stresdən qurtuluş

Kraliça Marqaret Universitetinin araşdırmasına görə, nar suyu içən insanlarda stresli vəziyyətlərdə artan stres hormonu olan kortizol səviyyəsi daha aşağı olur.

"MedlinePlus" Tibb Ensiklopediyasında isə nar şirəsinin piylənmənin müalicəsində istifadə oluna biləcəyi və arıqlamağa kömək etdiyi barədə məlumat var.

Nar həm də liflə çox zəngin meyvədir. Belə ki, 1 stəkan nar dənəsində 7 qram lif var ki, bu, çox yüksək göstəricidir. Lifli qidaların insanı uzun müddət tox tutduğu, aclığın qarşısını aldığı, arıqlamada təsirli olduğu bir çox elmi araşdırmalarla təsdiqini tapıb.

ABŞ Kənd Təsərrüfatı Nazirliyi 1 stəkan nar suyunda 139 kalori olduğunu bildirir. 100 qram nar 83 kaloridir. Buna görə də nar çəki nəzarəti üçün gündəlik qida rasionuna daxil edilə bilər.

Bu meyvənin orqanizmə heç bir zərəri yoxdur. Amma tərkibi vitamin və minerallarla zəngin olduğu üçün xərçəng dərmanları ilə qarşılıqlı əks təsir göstərə bilər. Bu səbəbdən xərçəng xəstələrinə dərman qəbul edərkən nar istehlak etmələri tövsiyə edilmir.

**Türkəçarə:**

## Çiçəklərin sirri

**Nar çiçəyindən əldə edilən çayın insan orqanizminə bir çox faydası var. Nar çiçəyi çayının istifadəsi bir çox xəstəliklərin qarşısını alır və onların müalicəsinə kömək edir.**

Narın tərkibinin C vitamini ilə zəngin olması da məhz çiçəyi ilə əlaqədardır. Bu səbəbdən də tərkibində C vitamini bol olan nar çiçəklərindən dəmlənən çay orqanizmin immun sistemini gücləndirmək üçün ideal vasitədir. Nar çiçəyi çayı rahatlaşdırıcı təsirə malikdir. Bu səbəblə zehni və fiziki yorğunluğu aradan qaldırır. Nar çiçəyi çayı xərçəng hüceyrələrinin məhv edilməsində də təsirli gücə malikdir. O, xərçəng hüceyrələrinin çoxalmasına maneə olur.

Böyrəklərə faydalı olan nar çiçəyi çayı bu orqanda daş və qum əmələ gəlməsinin və iltihabın qarşısını alır. Bağırsaqların nizamlı fəaliyyətinə təsir edərək qurd əmələ gəlməsinin qarşısını alır.

Nar çiçəyi çayının ən böyük təsiri xolesterolu tarazlaşdırmasıdır. Buna görə də mütəxəssislər tərəfindən xolesterol xəstələri üçün tövsiyə olunur.

Nar çiçəyi çayını hazırlamaq üçün bir stəkan qaynar suya bir-iki qaşıq təzə, yaxud qurudulmuş nar çiçəyi əlavə edilir. 5 dəqiqə dəmləndikdən sonra istehlak edə bilərsiniz.

**Faydalı:**

## Qırmızı eleksir

**Narın orqanizmə faydalarını saymaqla bitmir, amma tibb də sübut edir ki, bu meyvənin suyunun insan sağlamlığına xüsusi təsiri var. Nar şirəsinin tərkibi S, B1, B2, A, E, PP, orqanik turşular, amin turşuları kimi xeyirli maddələr ilə zəngindir.**



Ürək-damar sistemi üçün çox faydalı olan nar şirəsi qədim zamanlardan qan azlığı ilə mübarizədə çox geniş istifadə olunub. Xolesterolu və şəkəri balanslaşdıran nar suyu qan əmələ gətirmək xüsusiyyətlərinə malikdir. Nar şirəsinin tərkibində bağırsaqlarda yığılan ziyanlı maddələri xaricə çıxartmağa kömək edən pektinlər mövcuddur. Tanin maddələrlə də zəngin olan nar şirəsi bağırsaqlara büzücü təsir edir və ishala kömək edir.

Nar şirəsi orqanizmdə gedən qocalma prosesləri ilə mübarizə aparır və onu cavanlaşdırır.

Həkimlərin fikirinə görə, nar şirəsi xərçəng xəstələri üçün çox faydalıdır. Xüsusi araşdırmalar nəticəsində məlum olub ki, nar şirəsi prostat xəsrçəngindən əziyyət çəkən insanların vəziyyətini yaxşılaşdırır. Nar şirəsi xərçəngin profilaktikası üçün də istifadə oluna bilər. Bu şirə sidikqovucu təsirə malikdir - ödemləri azaldır, böyrəkləri təmizləyir, immun sisteminin fəaliyyətini yaxşılaşdıraraq orqanizmi möhkəmləndirir.

Nar suyu qrip viruslarını məhv etmək qabiliyyətinə malikdir. Tərkibindəki antioksidantlar sayəsində qanda oksidləşmənin qarşısını alır. Nar ekstraktı antibiotiklərlə birlikdə istifadə edildikdə davamlı bakteriyaları da öldürə bilir.

Revmatizm və oynaq ağrıları olan bölgələrə tətbiq edildikdə ağrıkəsici təsir göstərir. Huşunu itirənlərə nar şirəsi verildikdə onların ayılmasına təsir göstərir.

Həkimlər nar şirəsini yarıbayarı su və ya digər şirələrlə (xüsusilə kök şirəsi ilə) durulaşdırılmış şəkildə qəbul etməyi tövsiyə edirlər. Təmiz nar şirəsi bağırsaqları "yığır" ki, bu qəbizliyə səbəb ola bilər. Həmçinin təmiz nar şirəsinin qəbulu mədə və 12 barmaq bağırsaq xəstəlikləri, pankreatit zamanı əks-göstərişdir. Təmiz nar şirəsi diş emalına da mənfi təsir edə bilər.

Təbii nar şirəsini saxlamaq olmaz (hətta soyuducuda), şirəni hazırladıqdan dərhal sonra qəbul etmək lazımdır.

**Çarə:**

## Gənclik formulu



Nar çəyirdəyi yağı insan orqanizminə çoxsaylı faydaları ilə tanınan təbii vasitədir. Bu yağın tərkibindəki antioksidantlar hüceyrələrdəki zədələri bərpa edir. Bu səbəbdən nar yağı xərçəngə qarşı mübarizə üçün istifadə edilə bilər. Xüsusilə döş xərçəngi, leykemiya, qan xərçəngi, şiş əmələ gəlməsi, prostat və kolon, dəri xərçəngi növlərinə qarşı faydalıdır.

Pis qida vərdişləri kimi bir çox səbəblərə görə bəzən arteriyalar zəifləyir. Nar çəyirdəyi yağının arteriyaların təmizlənməsində köməkçi olduğu müəyyən edilib. Su və ya meyvə suyuna bir neçə damcı nar çəyirdəyi yağı əlavə edib içmək damarların təmizlənməsinə yardımçı olur.

Qan təzyiqinə qarşı yaxşı təsir göstərir. İflic keçirmə riski, gündəlik olaraq nar çəyirdəyi yağı istehlakı ilə azala bilər. Hətta bu yağ yüksək qan təzyiqini 5 faiz azaldır. Nizamlı istehlakı isə yüksək qan təzyiqi riskini 60 faiz aşağı salır.

Nar çəyirdəyi yağı, ellagik turşu (təbii antioksidant) və "omega-5" yağ turşuları baxımından zəngindir. Hər ikisi də qocalmanın ilkin əlamətlərinə səbəb olan sərbəst radikalları azaldır. Tədqiqatlar bu yağın dərini qoruduğunu müəyyən edib. Dərini qidalandırır və gənclik effekti verir. Daimi istifadə ilə dərinin toxumasını daha parlaq və elastik edir, qırışları aradan qaldırır.

Baş dərisində qan dövranını sürətləndirən faydalı yağ kəpək və qaşınma kimi problemləri əhəmiyyətli dərəcədə azaldır.

Hüceyrə yeniləyici xüsusiyyəti sayəsində bu yağı müntəzəm olaraq masaj edərək istifadə etdikdə selüliti əhəmiyyətli dərəcədə azaldır.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5585
Sifariş 2464
Qiyməti 40 qəpik